QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 110 (5830) **21 iyun** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İnqilabi sosial islahatlar uğurla davam etdirilir

*İyunun 18-də imzalanan 17 Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu, bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində, artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir*



Səh. 2

3

"Özəl sektorda çalışanların da minimum maaşı artacaq"



4

Nazirlər Kabinetinin növbəti iclası keçirilib



5

"Hərbi qulluqçularının maaşlarının artırılması sosial vəziyyətimizin yaxşılaşmasında mühüm rol oynayacaq"



# İnqilabi sosial islahatlar uğurla davam etdirilir

*İyunun 18-də imzalanan 17 Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu, bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində, artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir*



***İnsana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Söz yox ki, bu istiqamətdə də, son illər mühüm və ardıcıl addımlar atılmaqdadır. Prezident İlham Əliyev hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək, vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq.***

Hər il vətəndaşların əməkhaqlarının, pensiyaçıların təqaüdlərinin, aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ əlillərinə, eyni zamanda, sağlamlığı məhdud olan vətəndaşlara verilən sosial müavinətlərinin artırılması da, buna olan bariz sübutdur. Bu, Azərbaycanda insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan zəruri addım kimi qiymətləndirilir. Bu baxımdan, Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının böyük dərəcədə artırılması barədə iyunun 18-də imzaladığı sərəncamlar dövlətimizin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını əyani şəkildə göstərir.

Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədilə Prezident tərəfindən minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq, 250 manata çatdırılıb. Minimum əməkhaqqının artımı birbaşa 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu ilin sentyabr-dekabr ayları üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da, orta hesabla 40 faiz artmaqla, 265 manatdan 367 manata çatmasına imkan verir.

İyunun 18-də imzalanan 17 Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə, cari il ərzində, artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir. Dövlətimizin başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə əhtiva edən bu sərəncamlar, ümumilikdə, 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Misal üçün, bu illərdə gözlənilən daha bir proses artıq reallaşdırılıb. Belə ki, bundan sonra ölkədə aztəminatlı ailələr və gənclər daha güzəştli şərtlərlə mənzillərə sahib ola biləcəklər. Məlumat üçün onu da qeyd edək ki, bir müddət əvvəl, sözügedən prosesi sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi də yaradılıb. Məhz bunun nəticəsidir ki, artıq güzəştli şərtlərlə mənzil almağın şərtləri də müəyyənləşdirilib, insanlar bundan faydalanmağa başlayıblar. Media işçilərinə, qaçqın və məcburi köçkünlərə də mənzillərin verilməsi prosesi bu siyasətin tərkib hissəsi olaraq yüksək dəyərləndirilir. O da, təsadüfi deyil ki, ölkə rəhbəri İlham Əliyev tərəfindən irəli sürülən bu təşəbbüs Onun sosial siyasətinin bir parçası kimi xarakterizə edilir və dövlətin vətəndaşa diqqət və qayğısı kimi səciyyələndirilir.

Məsələn, son illər yüz minlərlə yeni iş yeri açılıb ki, bu da işsizliyin aradan qaldırılmasında müstəsna rol oynayır. Bu, bir daha təsdiq edir ki, Azərbaycanda sosial dövlət quruculuğu modeli uğurla həyata keçirilməklə yanaşı, həm də digər ölkələrə göstərilən örnəkdir. Dövlət başçımız xalqın güzəranının yaxşılaşdırılması üçün bütün imkanlardan yüksək səviyyədə istifadə edir və bütövlükdə, son illər ərzində, çox ciddi sosial tədbirlərin reallaşdırılması da buna bariz sübutdur.

Daha bir önəmli məqamı da xatırlatmaq yerinə düşərdi ki, hər il dövlət büdcəsinin böyük bir hissəsi, məhz sosial məsələlərə yönəldilir ki, bu da, ölkəmiz üçün tamamilə məqbuldur. Bu, bir daha sübut edir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir.

O da, bir həqiqətdir ki, sosial siyasətin uğurlu reallaşması üçün, ilk növbədə, güclü iqtisadiyyata malik olmaq lazımdır. Bu baxımdan, Azərbaycanın keçən dövr ərzində böyük inkişaf yolu keçməsi, ilk növbədə, həyata keçirilən düzgün iqtisadi siyasətlə əlaqədardır. Başqa sözlə desək, Azərbaycanın sürətli inkişafı və əldə edilmiş nailiyyətlər Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən siyasi və iqtisadi kursun məntiqi nəticəsidir.

Bu siyasət, müasir dünya iqtisadiyyatının tələblərinə müvafiq olmaqla, ölkəmizin tərəqqisini təmin edir. Makroiqtisadi sabitliyin qorunub-saxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın şaxələndirilməsi, bir sözlə, bütün sahələrdə davamlı inkişaf strategiyası uğurla həyata keçirilməkdədir. Ölkənin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Xüsusilə, Azərbaycan zəngin neft resurslarının satışından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilib. Şübhəsiz, sürətli iqtisadi inkişaf vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasında əks olunur. Xüsusilə də, yoxsulluq səviyyəsinin aşağı salınması və əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən fundamental tədbirlər bu istiqamətdə qarşıya qoyulan məqsədlərin təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu siyasətin davamlı xarakter alması üçün dövlətimiz bütün uğurlu vasitələrdən istifadə edir və atılan addımların yaxın gələcəkdə daha çox səmərə verəcəyini artıq indidən proqnozlaşdırmaq olar. Belə ki, hər bir azərbaycanlı ölkədə yürüdülən uğurlu sosial siyasətin bəhrəsini görəcək.

*Rövşən NURƏDDİNOĞLU*

## Prezident İlham Əliyev Bolqarıstanın "Dostluq" medalına layiq görülüb



Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın "Dostluq" medalına layiq görülüb. Trend-in məlumatına görə, medal Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş Assambleyasının 53-cü iclasında Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədova təqdim edilib.

Bildirilib ki, bu medal Prezident İlham Əliyevə Azərbaycan və Bolqarıstan arasında dostluq münasibətlərinin inkişafında xidmətlərinə görə təqdim olunub.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin təkmilləşdirilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Əli Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Əli Nağı oğlu Nağıyev Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilsin.

***

Prezident İlham Əliyev Mədət Quliyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilsin.

***

Dövlət başçısının digər Sərəncamı ilə Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilir.

***

Prezident İlham Əliyev "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 yanvar tarixli 466 nömrəli Fərmanının ləğv edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Ramil İdris oğlu Usubovun Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilsin.

***

Dövlət başçısının digər Sərəncamı ilə Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi təyin edilib.

***

Prezident İlham Əliyev Vilayət Eyvazovun Azərbaycan Respublikasının daxili işlər nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Dövlət başçısının digər Sərəncamı ilə Vilayət Süleyman oğlu Eyvazov Azərbaycan Respublikasının daxili işlər naziri təyin edilib.

# Birinci vitse-prezident Mehriban Əliyeva sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olub

***İyunun 20-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Abşeron rayonunun Saray qəsəbəsində 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olublar.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində uşaqlarla görüşüb, onların yaşayış şəraiti, uşaqlara göstərilən sosial və reabilitasiyayönümlü xidmətlərlə tanış olublar.







Mehriban Əliyeva və Leyla Əliyeva müəssisədəki uşaqların əl işlərindən ibarət sərgiyə baxıblar. Sağlamlıq imkanları məhdud uşaqların funksional çatışmazlıqlarının aradan qaldırılması, onların bacarıqlarının inkişaf etdirilməsi üçün aparılan reabilitasiya işlərindən biri də onların yaradıcılıq potensiallarının inkişafıdır. Uşaqlar muncuqlarla, plastilinlə müxtəlif əl işləri hazırlayır, rəsmlər çəkir, konstruktor oyunları ilə məşğul olurlar. Müəssisənin sakinləri özlərinin hazırladıqları əl işlərini Mehriban Əliyevaya və Leyla Əliyevaya hədiyyə ediblər.

Qeyd edək ki, bu müəssisə 2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulub. Hazırda burada 5-18 yaş arasında 170-dək uşaq yaşayır. Onlar əsasən uşaq serebral iflici, autizm, daun sindromu, fiziki və əqli inkişafdan geriqalma, mərkəzi sinir sisteminin zədələnməsi - ense-folo-patiya, parez kimi xəstəliklərdən əziyyət çəkirlər.

Birinci vitse-prezident sosial xidmət müəssisəsinin sakinlərinin əhvalı ilə maraqlanıb, onların müalicəsinin müsbət nəticələr verdiyinin şahidi olub. Belə ki, müəssisənin sakinlərindən biri - Xəyalə Hüseynova Mehriban Əliyeva ilə söhbət zamanı Azərbaycan və ingilis dillərində "əlillik qüsur deyil və yaşamaq, yaratmaq üçün məhdudiyyət ola bilməz" dedi. Azərbaycanın Birinci vitse-prezidenti uşaqların arzularını dinləyib, yenidən onların yanına qonaq gələcəyini bildirib, onlara uğurlar arzulayıb. Mehriban Əliyeva uşaqlarla birlikdə kitab oxuyub, nəşrdəki şəkilləri müzakirə edib. Uşaqlar Mehriban Əliyevaya və Leyla Əliyevaya öz bacarıqlarını nümayiş etdiriblər. Onlar Prezident İlham Əliyevin Sərəncamı ilə bu ilin "Nəsimi İli" elan olunduğunu bildirərək, şairin şerlərini səsləndiriblər, mahnılar, rəqslər ifa ediblər.

Sağlamlıq imkanları məhdud uşaqlara dövlət qayğısı ildən-ilə artır. Dövlətimizin başçısının 2019-cu il 15 aprel tarixli Fərmanı ilə həmin uşaqlar üçün aylıq sosial müavinətin məbləği əhəmiyyətli şəkildə artırılmaqla, onlara qulluq edənlər üçün Prezidentin aylıq təqaüdü də təsis olunub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi nəticəsində Bakıda Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi istifadəyə verilib. Bu müəssisədə uşaqlar üçün müasir tələblər səviyyəsində, nümunəvi yaşayış və reabilitasiya şəraiti yaradılıb.

Saray qəsəbəsindəki 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində 12 reabilitasiya otağı fəaliyyət göstərir və onlarda müasir dövrdə prioritet olan yeni reabilitasiya metodları - aktiv terapiya, oyun, ünsiyyət, musiqi, rəqs və digər terapiya növləri və hər bir uşaqla fərdi inkişaf planı əsasında işlər aparılır.

Sonda müəssisəyə Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

## Ukrayna Baş Nazirinin birinci müavini, İqtisadi İnkişaf və Ticarət naziri Azərbaycana gələcək



Ukrayna Baş Nazirinin birinci müavini, İqtisadi İnkişaf və Ticarət naziri Stepan Kubivin Azərbaycana səfəri nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bu barədə Ukraynanın ölkəmizdəki səfiri Vladimir Kanevski deyib

## "Silahlı münaqişələr bölgədə əməkdaşlıq imkanlarını ciddi şəkildə məhdudlaşdırır"




Silahlı münaqişələr bölgədə əməkdaşlıq imkanlarını ciddi şəkildə məhdudlaşdırır. AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin Sədri Oqtay Əsədov Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Məclisinin 53-cü Baş Assambleyasının iclasında deyib.

Sədr qeyd edib ki, Azərbaycan 25 ildən çoxdur Ermənistanın hərbi təcavüzündən əziyyət çəkir. "Biz əminik ki, bu münaqişələr beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə də dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında tezliklə öz həllini tapacaq", - deyə O.Əsədov əlavə edib.

Milli Məclisin sədri qeyd edib ki, 26 il əvvəl yaradılmış Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi Qara Dəniz bölgəsinin əmin-amanlıq və inkişaf zonasına çevrilməsi məqsədilə müxtəlif təşəbbüslərin irəli sürülməsi və həyata keçirilməsi baxımından çox böyük potensiala malik olduğunu sübut edib. Parlament Məclisinin iclasının 7 il sonra yenidən Bakıda keçirilməsinin və Qara Dəniz bölgəsində enerji məsələlərinə həsr olunmasının rəmzi mənası var. Bu 7 ildə Azərbaycanın yaxından iştirakı ilə həyata keçirilən nəhəng nəqliyyat və enerji layihələri bölgənin iqtisadi mənzərəsinin dəyişdirilməsində mühüm rol oynayıb. Beynəlxalq və regional əməkdaşlığın gözəl nümunələri olan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum və TANAP qaz kəmərləri, digər transmilli layihələr nəinki bölgəmizin, eləcə də Avropa qitəsinin iqtisadi xəritəsinin formalaşdırılmasında mühüm rol oynayır, onun enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verir. Bu layihələr arasında 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin reallaşdırılması və TAP kəmərinin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və Parlament Məclisi çərçivəsində tərəfdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir".

## "Özəl sektorda çalışanların da minimum maaşı artacaq"



"Prezident İlham Əliyevin əməkhaqqlarının artımı ilə bağlı imzaladığı sərəncamlar aztəminatlı ailələrin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına çox ciddi kömək edəcək". SİA xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Baş Nazirin müavini Əli Əhmədov deyib. O bildirib ki, dövlət sektotunda çalışanlarla yanaşı, özəl sektorda işləyənlərin də əməkhaqqının artırılması nəzərdə tutulur: "Prezident İlham Əliyevin sərəncamları ilə bu yaxınlarda ölkədə minimum əməkhaqqı, pensiya, dövlət qurumlarında çalışan işçilərin əməkhaqqıları artırılıb. Eyni zamanda bu yaxınlarda minimum pensiyanın həddinin müəyyən olunması ilə bağlı sərəncam imzalanacaq. 2019-cu ilin yarım ili ərzində minimum əməkhaqqı iki dəfə artırılıb. Ayrı-ayrı dövlət qurumlarında çalışan işçilərin əməkhaqqılarının, təxminən, 40 faiz artırılması barədə də sərəncamlar imzalanıb. Beləliklə, 100 minlərlə insanın əməkhaqqının bu sənədlərlə artırılması nəzərdə tutulub. Minimum əməkhaqqının artırılması vahid əməkhaqqı cədvəlinə uyğun olaraq, digər işçilərin də əməkhaqqılarında artımların olmasını avtomatik təmin edəcək və yüz minlərlə Azərbaycan vətəndaşının həyatını yaxşılaşdıra biləcək".

Baş Nazirin müavini vurğulayıb ki, Azərbaycanda həyata keçirilən islahatlar dövlət büdcəsinə vəsaitlərin artımını təmin edib: "Bunun nəticəsində Azərbaycan vətəndaşları üçün çox ciddi sosial paketlər qəbul edilib. Yaxın zamanlarda insanlar bu paketlərin faydasını görəcək. Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması bundan sonra da davam etdiriləcək. Ölkənin iqtisadi imkanları artdıqca, dövlət büdcəsinə daxil olan vəsaitlər artdıqca insanların rifahının yüksəldilməsi üçün addımlar atılacaq. Azərbaycanda həyata keçirilən islahatlar iqtisadiyyatımızı gücləndirir. Bu ilin ilk aylarında Azərbaycanın Ümumi Daxili Məhsulu xeyli artıb, ölkənin maliyyə imkanları artıb. Azərbaycan vətəndaşları bu artımdan faydalanacaqlar. Azərbaycan hökumətinin vətəndaşların rifahının yüksəlməsindən başqa ali məqsədi yoxdur".

# Nazirlər Kabinetinin növbəti iclası keçirilib



***İyunun 20-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl və davamlı islahatlardan danışıb. Azərbaycanda reallaşdırılan yeni iqtisadi islahatlar nəticəsində ölkəmizin maliyyə imkanlarının əhəmiyyətli dərəcədə artdığını bildirən Novruz Məmmədov deyib: "Bu, imkan verir ki, digər məsələlərlə yanaşı, ölkə vətəndaşlarının rifah halının daha da yaxşılaşdırılması istiqamətində addımlar atılsın.***

Bu ilin ilk yarısında dövlətimizin başçısının imzaladığı sosialyönümlü fərmanlar və sərəncamlar 3 milyon vətəndaşımızı əhatə edib. Prezident İlham Əliyevin iyunun 18-də imzaladığı sərəncamlar bir daha göstərdi ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində işlər uğurla davam etdirilir. Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının, eləcə də minimum əməkhaqqının artırılması barədə imzaladığı sərəncamlar geniş əhali kateqoriyasının rifah halının daha da yüksəldilməsinə imkan yaradacaq".

Bu gün Azərbaycanın dünyanın qabaqcıl dövlətləri ilə ikitərəfli və çoxtərəfli əsasda əlaqələr qurduğunu, xalqımızın maraqlarının təmin olunduğunu, milli dövlətçilik ideyalarının qorunub inkişaf etdirildiyini bildirən Novruz Məmmədov bütün bu uğurların arxasında Prezident İlham Əliyevin yüksək peşəkarlığının və siyasi səriştəsinin dayandığını söyləyib.

Sonra Novruz Məmmədov iclasın gündəliyi barədə məlumat verib. Bildirilib ki, iclasın gündəliyinə "Qaz təchizatı sahəsində mövcud durum, problemlərin aradan qaldırılması və sistemin dayanıqlı inkişafının təmin edilməsi üzrə kompleks tədbirlər haqqında", "Ölkə əhalisinin keyfiyyətli içməli su və kanalizasiya xidmətləri ilə təmin edilməsi sahəsində görülən işlər, xidmətin keyfiyyətinin yüksəldilməsi və infrastrukturunun daha da təkmilləşdirilməsi ilə bağlı qarşıda duran cari və perspektiv məsələlər haqqında" və "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması işlərinin gedişi haqqında" məsələlər daxildir.

Təbii enerji qaynaqlarının mühüm seqmentini təşkil edən qaz sektorunun Azərbaycanın sosial-iqtisadi həyatında vacib rola malik olduğunu bildirən Baş Nazir qeyd edib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan enerji siyasətinin uğurla icrası nəticəsində ölkəmiz bu sahədə ciddi nailiyyətlər qazanıb. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rola malik ölkədir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 2019-cu il 29 may tarixli Sərəncamında Energetika Nazirliyinə "Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası"nın layihəsinin hazırlanması tapşırılıb.

Baş Nazir bildirib ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında "Azəriqaz" İstehsalat Birliyinin fəaliyyətində yol verilən nöqsanları və bu sahədə olan bir sıra problemləri qeyd edib, çatışmazlıqların aradan qaldırılması, şəffaflığın təmin olunması ilə bağlı tapşırıqlarını verib.

Novruz Məmmədov deyib ki, ölkəmizdə əhalinin keyfiyyətli içməli su və kanalizasiya xidmətləri ilə təmin edilməsi istiqamətində bu günə qədər bir sıra mühüm layihələr icra olunub. Bununla yanaşı, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, su təchizatı xidmətlərinə görə ödəniş səviyyəsinin yüksəldilməsi, istehlak edilən suyun uçotunun dəqiq aparılması və itkilərin qarşısının alınması məqsədilə müvafiq sուölçən cihazların quraşdırılması ilə bağlı işlərin davam etdirilməsi qarşıda duran prioritet məsələlərdir.

Baş Nazir əhalinin siyahıyaalınmasına hazırlıqla bağlı görülən işlərdən danışaraq siyahıyaalma məntəqələrinin komplektləşdirilməsinin, zəruri avadanlıqlarla təchiz olunmasının və bununla bağlı əhalinin məlumatlandırılması işlərinin vacibliyini vurğulayıb. Sonra Energetika naziri Pərviz Şahbazovun, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevin, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynovun, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun gündəlikdəki məsələlərlə bağlı məruzələri dinlənilib. İclasda mövzularla bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

# Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib




***İyunun 20-də Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Beynəlxalq Muğam Mərkəzində təşkil edilən tədbirin iştirakçıları əvvəlcə qaçqınların və məcburi köçkünlərin həyatından bəhs edən fotosərgiyə baxıblar.***

Tədbiri açan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Quido Ambroso tədbirin təşkilində göstərdiyi dəstəyə görə Azərbaycan Hökumətinə və Heydər Əliyev Fonduna minnətdarlığını bildirib. Sonra BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandinin videomüraciəti nümayiş etdirilib.



Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov tədbirdə çıxış edərək bildirib ki, qaçqın və məcburi köçkün problemi bu gün dünyanı narahat edən məsələdir. Bu gün dünyada 70 milyondan çox qaçqın və məcburi köçkün var. Bu problemin həlli üçün dünya dövlətləri, siyasətçilər ciddi səy göstərməlidirlər. Ölkələr qaçqın və məcburi köçkünlərə yardımlar edirlər. Bu, yaxşı haldır. Ancaq münaqişənin həlli kökündən həll olunaraq qaçqınlığa, köçkünlüyə son qoyulmalıdır. Məhz müharibələrin səbəbidir ki, dünyada qaçqın ordusunun sayı artır.




Baş Nazirin müavini bildirib ki, Azərbaycan 30 ildən çoxdur bu problemlə üz-üzədir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanı çətin vəziyyətə salan bu məsələyə vaxtilə lazımi diqqətin yetirilməməsi səbəbindən indi bütün dünya bu ağır problemlə üzləşib. Bu gün bu problemi yaradan səbəblər araşdırılmalı, məsələnin həlli istiqamətində birgə səylər göstərilməlidir. Azərbaycan dövlətinin böyük səyləri nəticəsində bu gün ölkəmizdə qaçqınların və məcburi köçkünlərin sosial vəziyyəti xeyli yaxşılaşıb. Lakin hələ də onlar öz yurd-yuvalarına qayıtmayıblar. "Düşünürəm ki, Azərbaycanın haqq səsini vaxtilə eşitməyənlər bu gün bizim çağırışımızı dinləyəcəklər. Bizim hədəfimiz işğal olunmuş torpaqlarımızı azad etmək və qaçqın, köçkün düşən vətəndaşlarımızı öz yurd-yuvalarına qaytarmaqdır", - deyə Əli Əhmədov qeyd edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev deyib ki, bugünkü tədbirin keçirilməsində əsas məqsəd bu problemin nə qədər vacib olduğunu bir daha diqqətə çatdırmaqdır. Azərbaycanda qaçqın və məcburi köçkün problemi ilə bağlı əsaslı işlər görülür. Lakin bu problem bütün dünyada böyük narahatlıq yaradır. Aidiyyəti təşkilatlar qaçqın və məcburi köçkün probleminin həlli ilə bağlı birgə çalışmalıdırlar.

R.Rzayev Azərbaycanda məcburi köçkünlərə yaradılan sosial imkanlardan danışıb. O qeyd edib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirib. Ancaq buna baxmayaraq, ölkə rəhbərliyi bu gün onların öz yurd-yuvalarına qayıtmaları üçün çalışır.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov bildirib ki, qaçqın, köçkün problemi həqiqətən də qlobal problemdir və ciddi yanaşma tələb edir. Təəssüf ki, bu problem dünya miqyasında getdikcə artır. Dünyada cərəyana edən siyasi proseslər 70 milyon insana ağır dərəcədə təsir edir. Problemin daha da dərinləşməməsi üçün ciddi işlər görmək lazımdır. Böyük dövlətlər ikili standartları və məsələyə laqeydliyi aradan qaldırmalıdırlar. Azərbaycan qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məsələsində nümunədir. Lakin məsələ bununla bitmir. Bu insanlar öz doğma torpaqlarına qayıtmalıdırlar.

Sonra Dövlət Miqrasiya Xidmətinin Ümumdünya Qaçqınlar Günü ilə bağlı hazırladığı videoçarx nümayiş olunub.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai qeyd edib ki, qaçqın və məcburi köçkün problemi dünya üçün ciddi təhlükədir. BMT-nin iqlim dəyişikliyinə və digər problemlərə qarşı mübarizə apardığı bir dövrdə ən çox diqqət qaçqın və məcburi köçkünlərin üzərinə yönəlməlidir. İl bir dünyada öz yurd-yuvalarından didərgin düşən insanların sayı ən yüksək həddə çatıb. Bu, bizi problemi yaradan səbəblər barədə dərindən düşünməyə vadar edir. Məsələnin həlli üçün bütün dövlətlər və aidiyyəti təşkilatlar birgə səy göstərməlidirlər.

"Alman Qaçqın Akademik Təşəbbüsü" təqaüd proqramı vasitəsilə Azərbaycanda təhsil alan əfqanıstanlı qaçqın tələbə Zəhra Muhamədi ölkəmizdə ona yaradılan şəraitdən danışıb. O qeyd edib ki, 19 ildir Azərbaycanda yaşayır. O, 9 aylıq körpə olanda valideynləri Əfqanıstandan qaçdığını deyən Zəhra ona və ailəsinə yaradılan imkana görə Azərbaycan Hökumətinə minnətdarlığını bildirib.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Quido Ambroso tədbirə yekun vuraraq qeyd edib ki, qaçqın və məcburi köçkünlər diqqətdən kənarda qalmamalıdırlar. Dünyada davam edən münaqişələr qaçqın və məcburi köçkünlərin sayını artırır. O qeyd edib ki, bu gün Azərbaycanda məcburi köçkünlərin vəziyyəti xeyli yaxşılaşıb. Ancaq onlar öz yurd-yuvalarına qayıda bilmirlər. Tədbir bədii hissə ilə davam edib.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyunun 20-də Naftalan şəhərinin, Göygöl, Ağcabədi, Zərdab, Siyəzən rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlar imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb. Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## "Prezidentin imzaladığı sərəncamlar ölkəmizdə aparılan uğurlu iqtisadi siyasətin nəticəsidir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il iyunun 18-də bir çox dövlət qurumlarında, eyni zamanda, elm və təhsil müəssisələrində çalışan əməkdaşların maaşlarının artırılması ilə bağlı imzaladığı sərəncamlar aparılan uğurlu iqtisadi siyasətin nəticəsidir.

Bunu AZƏRTAC-a müsahibəsində Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri İsa Həbibbəyli deyib. O bildirib ki, aparılan iqtisadi islahatlar və əldə olunan nailiyyətlər sayəsində bu gün ölkənin bütün sahələrində çalışanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində addımlar atılır.

Akademik qeyd edib ki, Prezidentin "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında", "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında", "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" sərəncamları elm və təhsil sahəsində çalışanların üzərinə böyük məsuliyyət qoyur. "Biz elm və təhsil işçiləri bundan sonra daha da səylə çalışacağıq ki, Azərbaycan elminin inkişafına öz töhfələrimizi verək", - deyə İsa Həbibbəyli qeyd edib.

## "Hərbi qulluqçularının maaşlarının artırılması sosial vəziyyətimizin yaxşılaşmasında mühüm rol oynayacaq"



Müdafiə Nazirliyinin hərbi qulluqçularının maaşlarının əhəmiyyətli dərəcədə artırılması bizim sosial vəziyyətimizin yaxşılaşmasında mühüm rol oynayacaq. Bunu cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birinin taqım komandirinin müavini, gizir Emin Əhmədov AZƏRTAC-a müsahibəsində deyib.

E.Əhmədov bildirib: "Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun şəxsi heyətinə daim yüksək diqqət və qayğı göstərir. Ön xətdə xidmət edən hərbçi kimi deyə bilərəm ki, dövlətimizin başçısının bu addımı təkcə məni deyil, bütün hərbçiləri, o cümlədən cəbhə bölgəsində düşmənlə üz-üzə xidmət aparan zabitlərimizi, gizirlərimizi, çavuşlarımızı çox sevindirdi. Bu, Ali Baş Komandanımızın bizə yüksək diqqət və qayğısının daha bir əyani təsdiqidir".

E.Əhmədov qeyd edib ki, ölkəmizdə ordumuzun döyüş qabiliyyətinin və maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır. Bu Sərəncam zabitlərin və müddətdən artıq xidmət edən hərbi qulluqçuların rifah halını daha da yaxşılaşdıracaq, xidmətin daha da yüksəlməsinə səbəb olacaq. Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, ordu quruculuğuna da böyük diqqət yetirir. Xalqımız, dövlətimiz hərbi qulluqçuların əməyini daim yüksək qiymətləndirir. Biz xidmətimiz zamanı hərtərəfli qayğı ilə əhatə olunuruq. Bir sözlə, Azərbaycan dövləti, Ali Baş Komandan hər zaman hərbçilərin yanındadır. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev daim zabitlərin, gizirlərin, çavuşların sosial qayğıları ilə maraqlanır, onların problemləri həll edilir. Bütün bunlara görə biz Azərbaycan Respublikasına xidmətimizlə fəxr edirik.

## Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib




İyunun 20-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitə sədri Hadi Rəcəbli gündəliyə 5 məsələnin daxil olduğunu deyib. Bildirib ki, Prezident İlham Əliyev 2019-cu ili ölkəmizdə sosial müdafiə sistemində islahatlar ili elan edib. Bu sahədə bir sıra mühüm islahatlar aparılıb, struktur dəyişiklikləri həyata keçirilib.

Gündəlikdəki qanun layihələrini birinci oxunuşda Milli Məclisin Sosial qanunvericilik şöbəsinin Əmək qanunvericiliyi sektorunun müdiri Adil Vəliyev təqdim edib. O bildirib ki, Əmək və Miqrasiya məcəllələrinə, "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihələri "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi daşıyır.

Sonra "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Qeyd edilib ki, nəzərdə tutulan dəyişikliklər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna (DSMF) dövlət büdcəsindən ayrılan transfertin 150,0 milyon manat azaldılaraq, həmin vəsaitin xüsusi müdafiə təyinatlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsi; DSMF-nin xərclərinin 200,0 milyon manat, işsizlikdən sığorta fondunun xərclərinin isə 15,0 milyon manat artması səbəbindən icmal büdcə xərclərinin yuxarı həddinin cəmi 215,0 milyon manat artırılması; sosial paket çərçivəsində DSMF-nin gəlirlərinin 350,0 milyon manat, xərclərinin isə 200,0 milyon manat artırılması nəticəsində qanunda müvafiq düzəlişlər edilərək, gəlirlərin xərclərdən artıq olan hissəsi (150,0 milyon manat) həcmində dövlət büdcəsindən transfertin azaldılması məqsədlərini daşıyır.

"Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsi əmək pensiyalarının minimum məbləğinin 2019-cu il 1 oktyabr tarixdən artırılaraq 160 manatdan 200 manata çatdırılması məqsədini daşıyır.

"İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi isə özünüməşğulluq tədbirlərinin təşkilinin maliyyələşməsi üzrə xərclərin artırılması məqsədini daşıyır.

İclasda iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev sosial islahatlarla bağlı həyata keçirilən tədbirlərdən danışıb. Qeyd edib ki, bu il həyata keçirilən birinci sosial paketin illik maliyyə yükü 2 milyard manatdır. İkinci sosial paket isə 2 milyon 100 min nəfər vətəndaşı əhatə edir. Bu paketin illik xərci 2 milyard manata yaxın olacaq. Amma 2019-cu ilin yerdə qalan dövrü üzrə bu istiqamətdə 660 milyon manat vəsait yönəldiləcək.

Bildirilib ki, ikinci sosial paket çərçivəsində həyata keçiriləcək tədbirlər 1 milyon 350 min vətəndaşın əməkhaqqının artımına səbəb olacaq. Bu da ölkə üzrə muzdla işləyənlərin 80 faizini təşkil edir. Həmin insanlardan 1 milyonu dövlət sektorunda, qalanları isə özəl sektorda işləyənlərdir. 750 min nəfərin isə pensiyasında artım baş verəcək. Bu isə ölkədə ümumi pensiyaçıların təqribən 60 faizi deməkdir. Digər pensiyaçılara gəldikdə, nazir diqqətə çatdırıb ki, 2020-ci ilin yanvarından bütün pensiyalar artacaq. Belə ki, orta aylıq əməkhaqqı artımı ilə bağlı proqnoz bu il üçün 15 faizdir. Buna uyğun olaraq, 2020-ci ilin 1 yanvar tarixindən bütün pensiyaçıların pensiyası indeksasiya nəticəsində əlavə 15 faiz artacaq. Beləliklə, hazırda 160 manat alan pensiyaçı oktyabrdan 200 manat, yanvardan isə 230 manat pensiya alacaq.

Sahil Babayev deyib ki, sosial paketlər çərçivəsində ayrılacaq vəsaitlər iqtisadi inkişaf nəticəsində qazanılan pullardır. Bu vəsait Dövlət Neft Fondundan ayrılan transfertlər deyil.

Komitə üzvləri gündəlikdəki məsələlərlə bağlı fikir və münasibətlərini bildiriblər. Qanun layihələri Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olunub.

## Hərbi xərclər artırılır



Prezident İlham Əliyevin təşəbbüsü ilə "2019-cu il dövlət büdcəsi haqqında" qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsi bu gün Milli Məclisə təqdim olunub. SİA xəbər verir ki, sözügedən məlumatı Maliyyə Nazirliyi yayıb. Məlumatda deyilir ki, ölkədə minimum əmək haqqının və pensiyanın artırılması ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) büdcəsinin 200 milyon manat, İşsizlikdən Sığorta Fondunun isə büdcəsinin 15 milyon manat artırılması zərurəti yaranıb. Həmin xərclərin qarşılanması üçün məcburi dövlət sosial sığorta haqları üzrə 350 milyon manat məbləğində əlavə daxilolma nəzərdə tutulur. Bununla əlaqədar "Büdcə sistemi haqqında" qanunun tələbləri gözlənilməklə əlavə 2019-cu il üzrə icmal büdcənin xərclərinin yuxarı həddinin 215 milyon manat artırılması və dövlət büdcəsindən DSMF-nin gəlir və xərclərinin balanslaşdırılması üçün Fonda ayrılan vəsaitin məbləğinin 150 milyon manat azaldılması nəzərdə tutulur.

Qanun layihəsinə əsasən bu ilin dövlət büdcəsində nəzərdə tutulmuş müdafiə xərclərinin 150 milyon manat və yaxud 4,9% artırılaraq 3 037,618 milyon manatdan 3 187,618 milyon manata çatdırılması nəzərdə tutulur. Belə görünür ki, müdafiə xərclərində bu artım İlham Əliyevin sərəncamı ilə Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin maaşlarının 40 faiz artırılmasından irəli gəlir. Həmin xərcləri qarşılamaq üçün müdafiə xərclərinə yenidən baxılmalıdır.

***Rövşən***

# Ölkə başçısının növbəti sərəncamları və yeni qanunvericilik təşəbbüsü 2,1 milyondan çox vətəndaşı əhatə edir

***Bu ilin sosial inkişaf və əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bəyan edən Prezident İlham Əliyevin təqdim etdiyi yeni uğurlu sosial paket bu bəyanatın daha bir real təsdiqi və sosial sahədə yeni inqilabi addımlar olmaqla əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində növbəti ciddi irəliləyişlərə imkan verib. Dövlət başçısının iyunun 18-də imzaladığı sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların əməkhaqlarının artırılması təmin olunub.***



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, “Minimum aylıq əməkhaqqının artırılması haqqında” 2019-cu il 18 iyun tarixli Sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq ki, bununla həm də minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) 40 faiz üstələmiş olacaq.

Bu, 2019-cu il ərzində dövlət başçısının tapşırığı ilə minimum əməkhaqqında edilən artıq ikinci ciddi artımdır. Belə ki, hələ bu ilin ilk aylarında Prezident İlham Əliyevin sosial islahatlar proqramının tərkib hissəsi kimi, 2019-cu il 8 fevral tarixli Sərəncamla minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılıb. Göründüyü kimi cari il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılmasına nail olunur ki, bu da mühüm sosial uğur kimi əhalinin rifahına ciddi dəstək deməkdir. Digər tərəfdən, yeni artımla Azərbaycan minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə (PPP) MDB ölkələri arasında 2-ci yerdə qərar tutacaq. İyunun 18-də imzalanan digər sərəncamlarla müxtəlif qurumlarda çalışanların əməkhaqlarının cari il sentyabrın 1-dən orta hesabla 20-50 faiz artırılması tapşırılır. Onların sırasına müəllimlər, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanlar, hərbi qulluqçular, gömrük işçiləri və digərləri daxildir.

Ümumilikdə, 2019-cu il 18 iyun tarixli sərəncamlarla ölkədə minimum əməkhaqqının, müxtəlif sahələrdə işləyənlərin əməkhaqlarının artırılması 1 milyon 350 minədək insanın əməkhaqqı gəlirlərinin artmasına səbəb olmaqla onların rifahına ciddi dəstəkdir. Həmin insanlardan 1 milyonu dövlət, qalanları isə özəl sektorda işləyənlərdir.

Eyni zamanda, Prezident İlham Əliyevin yeni qanunvericilik təşəbbüsü kimi əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması təmin ediləcək. Bununla əlaqədar qanunvericilik layihəsi hazırlanaraq artıq Milli Məclisə təqdim olunub. Bu artım 660 min pensiyaçını əhatə edəcək.

Onu da qeyd edək ki, bu artım ölkə başçısının təşəbbüsü ilə cari il ərzində əmək pensiyasının minimum məbləğinin artırılması istiqamətində atılan artıq ikinci mühüm addımdır. Bundan əvvəl də dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında pensiyanın minimum məbləği cari il martın 1-dən orta hesabla 40 faizədək artırılaraq 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılıb, həmin artım ümumilikdə 233 min pensiyaçını əhatə edib. Göründüyü kimi bu il ərzində Azərbaycanda minimum pensiyanın məbləği ümumən 72,4 faiz artırılmaqla 116 manatdan 200 manata çatdırılıb.

Beləliklə, dövlət başçısının iyunun 18-də imzaladığı sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların əməkhaqlarının, eləcə də dövlət başçısının qanunvericilik təşəbbüsü nəticəsində minimum pensiyanın artırılması birbaşa olaraq 2,1 milyondan çox vətəndaşın əməkhaqqı və pensiyasında ciddi artıma imkan verəcək.

Sosial sahədə yeni inqilabi addımlar olan bu artımlar üçün dövlət tərəfindən bu ilin qalan dövrü üzrə 660 milyon manat, illik 2 milyard manat əlavə vəsait ayrılacaq. Qeyd edilənlər Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin daha bir mühüm nailiyyəti, dövlət başçısının əhalinin rifahına ardıcıl dəstəyinin əyani göstəricisi, ölkənin sosial inkişafında növbəti ciddi irəliləyişdir.

# “2019-cu il sosial inkişaf və rifah ili kimi öz təsdiqini tapdı”

***“2019-cu il Azərbaycanın tarixinə sosial müdafiə və sosial rifah ili kimi daxil oldu. Əhalinin sosial müdafiəsinin daha da güclənməsi ilə xarakterizə olunan 2019-cu ilin ilk ayında atılan addımlar, imzalanan fərman və sərəncamlar insan amilinin ölkə Prezidenti İlham Əliyevin uğurlu siyasətinin mərkəzində dayandığını bir daha təsdiq etdi”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib.***



O bildirib ki, 2017-ci il Azərbaycan iqtisadiyyatının sabitləşməsi, 2018-ci il iqtisadi inkişaf kimi xalqımızın tarixinə düşdüsə, 2019-cu il sosial inkişaf və rifah ili kimi öz təsdiqini tapdı. Deputat söyləyib ki, Prezident İlham Əliyevin 2019-cu il 18 iyun tarixli Sərəncamı ilə sentyabrın 1-dən minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılması, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılması ölkədə həyata keçirilən siyasətin mərkəzində insan amilinin olduğunun bir daha sübut etdi.

P.Kərimzadə vurğulayıb ki, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına uyğun həyata keçirilən inqilabi islahatlar həm də təsdiq etdi ki, ölkəmizin güclü iqtisadi imkanları var: “ Bu gün sosial sahədə atılan addımların təməlində Ulu öndər Heydər Əliyev məktəbinin ən istedadlı yetirməsi olan İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları dayanır”.

***Nailə Məhərrəmova***

## ABŞ Azərbaycanın verdiyi dəstəyi yüksək qiymətləndirib



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Vaşınqtonda ABŞ Dövlət Katibinin siyasi məsələlər üzrə müavini Devid Heyl ilə görüşüb. XİN-dən SİA-ya verilən məlumata görə, görüşdə ikitərəfli əməkdaşlığının siyasi gündəliyinə daxil olan bir sıra məsələlər müzakirə edilib. Azərbaycan-ABŞ münasibətlərinin əsas cəhətləri, əməkdaşlığın inkişaf etdirilməsi üzrə prioritet istiqamətlər və son zamanlar əməkdaşlıqda artan dinamika barədə geniş fikir mübadiləsi aparılıb.

Bölgədə mövcud vəziyyət barədə danışan iki dövlətin rəsmiləri həlli uzadılmış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti və prosesin irəli aparılması üçün atılmalı olan zəruri addımları müzakirə ediblər. Tərəflər ATƏT-in Minsk qrupu çərçivəsində hazırda aparılan danışıqlar prosesinə dəstəyi ifadə ediblər.

Azərbaycanın Əfqanıstandakı əməliyyatlar kontekstində göstərdiyi dəstək ABŞ tərəfindən yüksək qiymətləndirilib və bu xüsusda ölkəmizin strateji önəmi Dövlət Katibinin müavini tərəfindən vurğulanıb. Tərəflər, habelə bölgədə Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşan enerji və nəqliyyat layihələri, eləcə də qarşılıqlı maraq doğuran digər regional məsələlər barədə fikir mübadiləsi aparıblar.

## Sosial sahədə növbəti inqilabi addımlar



“Dövlət başçısının hər dəfə imzaladığı sərəncamlar ictimaiyyətdə 2003-cü ildə Prezidentimiz tərəfindən deyilən aforizmə çevrilmiş fikirləri xatırladır: “Mən hər kəsin Prezidenti olacam” və ya “Neft kapitalını insan kapitalına çevirəcəyik”. Bu fikirləri “Səs” qəzetinə açıqlamasında millət vəkili, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı bildirib. Onun sözlərinə görə, bu günədək həyata keçirilmiş uğurlu siyasətin fəlsəfəsi də bu təməl üzərində qurulmuşdur: “Azərbaycan xalqının, onun hər bir vətəndaşının rifahının yaxşılaşdırılması, məhz Prezidentimizin şərəflə həyata keçirdiyi vəzifənin əsas məqsədidir. Bir neçə gün bundan öncə ölkə başçısı İlham Əliyev növbəti tarixi bir Sərəncam imzaladı. Doğrusu, ictimaiyyət üçün Möhtərəm Prezidentimiz tərəfindən imzalanan belə humanist sərəncamlar gözlənilləndir. Biz xronoloji olaraq, 2003-cü ildən bu günə qədər ki, imzalanan bütün sənədlərə və həyata keçirilən islahatlara, eləcə də, Dövlət Proqramına diqqət yetirsək, görərik ki, əsas ana xəttin xalqın rifahı və firavanlığı təşkil edir. Bu mənada, təkcə bu ilin əvvəlindən başlayaraq, imzalanan sənədlər bunları tam və qabarıq şəkildə əks etdirir”.

Millət vəkili onu da bildirib ki, əhalinin bütün sahələrdə həm birbaşa və həm də dolayı yolla həyat səviyyəsi gözlə görüləcək dərəcədə gündən-günə yaxşılaşır. Ötən dövrdən bu günədək əməkhaqqı və pensiyaların dəfələrlə artdığını vurğulayan M.İbrahimqızı bu gerçəkliyin ictimaiyyət tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırdı: “Əslində, 2019-cu il ölkəmizdə, sözün həqiqi mənasında “Sosial Rifah və Firavanlıq İli” adlandırılır. Əhalinin sosial müdafiəsi sahəsində ardıcıl olaraq, daha qətiyyətli və zəruri qərarların qəbul edilməsi beynəlxalq ekspertlər tərəfindən də təqdir edilir. Bu ilin əvvəlində minimum əməkhaqqı və pensiyaların, təxminən, 40 faiz artırılmasını da nəzərə alsaq, əslində, növbəti sərəncamla təxminən artım 100 faiz edir. Minimum əməkhaqqının artırılması yüz minlərlə insanların maaşının 270-350 manata qədər artdığını göstərir. Ən vacibi isə, minimum əməkhaqqının 250, minimum pensiyaların isə 200 manat məbləğində müəyyən edilməsidir. Qısaca olaraq, əhalinin bütün sahələrini əhatə edən bu Sərəncamı inqilabi Sərəncam adlandırmaq olar. Ümumiyyətlə, ölkəmizdə Möhtərəm Prezidentimizin həyata keçirdiyi siyasət, onu göstərir ki, keçmiş Sovet respublikaları arasında ən firavan həyat tərzinə malik olan Azərbaycan əhalisi, hətta Avropanın bir çox ölkələri səviyyəsində olacaqdır”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövlətinin siyasətinin əsas xəttini təşkil edir

*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin yap.org.az-a müsahibəsi*



***- Hadi müəllim, bildiyimiz kimi ötən dövr ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət başçısı tərəfindən mühüm Fərman və sərəncamlar imzalanıb. Bütün bunlar konkret olaraq faktlarda özünün əksini necə tapır?***

- Həqiqətən də, Prezident İlham Əliyevin sosial sahə ilə bağlı qərarları, Fərman və sərəncamları inqilabi xarakter daşıyır. Bu yöndə qərarlar 2018-ci ildən etibarən xüsusilə intensivləşib. Bu istiqamətdə atılan addımlar müqayisəyəgəlməzdir. Bilirsiniz ki, ötən il seçkilərdə qələbə qazandıqdan sonra Prezident cənab İlham Əliyevin imzaladığı ilk Fərmanın - 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu.

Bütövlükdə, ötən bir il ərzində şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində vacib qərarlar verilib.

Belə ki, şəhid ailələri üçün verilən Prezident təqaüdü artırılıb, bu kateqoriyaya aid olan insanların mənzillərlə və avtomobillərlə təminatı daha da yaxşılaşdırılıb, eləcə də qaçqın və məcburi köçkünlər üçün aylıq sosial müavinət artırılıb, yeni şəhərciklər inşa edilərək istifadəyə verilib.

Bütün bunlarla yanaşı bu ilin əvvəlindən minimum pensiyanın, minimum əməkhaqqının artırılması da vacib məqamlardan biri idi. Fevralın 25-də dövlət başçısının imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı nəticəsində aprelin 1-dən bir sıra ödəmələr əhəmiyyətli dərəcədə artırılıb. Problemli kreditlərin həlli ilə bağlı dövlət başçısının verdiyi qərar və s. addımlar da bir daha təsdiqləyir ki, dövlət siyasətinin əsasında vətəndaş amili dayanır.

"2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır", - deyə bəyan edən cənab Prezidentin bu fikirləri Onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb.

***- İyunun 18-də Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə minimum əməkhaqqı yenə də artırıldı, eləcə də müxtəlif kateqoriyalar üzrə çalışların maaşlarında artm baş verdi. Bu barədə nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyev çıxışlarında dəfələrlə 2019-cu ilin əhalinin sosial müdafiəsinin güclənməsi ili olacağını bildirib. Dövlətimizin başçısının cari ilin əvvəlindən verdiyi qərarlar əhalinin rifahının daha da yaxşılaşmasını təmin edir. İyunun 18-də imzalanmış sərəncamlar da məhz bu məqsədə xidmət edir.

Azərbaycan Prezidentinin imzaladığı Sərəncamla minimum əməkhaqqı 180 manatdan 250 manata çatdırıldı. Bu da 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanların 600 mini dövlət qurumlarında çalışırsa, 350 mini özəl sektorda fəaliyyət göstərir. Bununla yanaşı, iyunun 18-də imzalanan sərəncamlarla dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqları nəzərəçarpacaq dərəcədə artırıldı. Bu sərəncamlar Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını, dövlətin hər bir vətəndaşının yanında olduğunu bir daha əyani şəkildə göstərir. Beləliklə, imzalanan hər bir sərəncam Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına yönəlib.

Bu gün ölkəmiz güclü iqtisadi imkanlara malikdir. Azərbaycanın iqtisadi qüdrəti, ixrac potensialı ilbəil artır, qeyri-neft sektoru inkişaf edir. Ölkəmizin təşəbbüsü ilə irimiqyaslı qlobal layihələr uğurla icra edilir. Görülən bütün bu işlərin nəticəsində isə hər bir Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır. Bu cür sosial inqilab xarakterli qərarlar davamlı xarakter alıb. İlin sonunadək vaxtaşırı belə qərarlar veriləcək. Nəticədə vətəndaşlarımızın güzəranı daha da yaxşılaşacaq.

***- İlin sonuna qədər əhalinin sosial müdafiəsi istiqamətində daha hansı addımların atılması gözlənilir?***

- Azərbaycanda əmək pensiyalarının artırılması üçün qanunvericiliyə dəyişiklik edilir. Bilirsiniz ki, iyunun 20-də parlamentin Əmək və sosial siyasət komitəsində "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik layihəsi müzakirəyə çıxarılıb.

Dəyişiklik əmək pensiyalarının minimum məbləğinin artırılması ilə bağlıdır. Layihəyə əsasən, qanunun 6-1-ci maddəsinin (Əmək pensiyasının minimum məbləği) mətni yeni redaksiyada verilir. Yeni redaksiya belədir: "Əmək pensiyasının minimum məbləği 2019-cu il 1 oktyabr tarixindən 200 manat müəyyən olunur. Təyin edilən əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir". Bu məsələ parlamentin plenar iclasına tövsiyə olunub və şübhəsiz ki, deputatlarımız bu qanunu birmənalı olaraq dəstəkləyəcəklər.

Qeyd etdiyim kimi, Azərbaycan sosialyönümlü dövlətdir və gələcəkdə də belə qərarlar qəbul ediləcək. Çünki əhalinin sosial müdafiəsinin gücləndirilməsi və yaxşılaşdırılması Azərbaycan dövlətinin və dövlət başçısının siyasətinin əsas xəttini təşkil edir.

# Qəhrəman sərhədçi anıldı

***XXI əsrin ilk Milli Qəhrəmanı - sərhədçi Eltun Xaləddin oğlu İsgəndərovun anım gününün 10 illiyi ilə əlaqədar olaraq qəhrəmanın anadan olduğu Samux rayonunun Əhmədbəyli kəndində təntənəli mərasim keçirilib. SİA-ya Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən verilən məlumata görə, mərasimdən öncə Samux Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Dövlət Sərhəd Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətnin hərbi qulluqçuları, hüquq mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri, qəhrəmanın doğmaları şəhid sərhədçinin əziz xatirəsini yad edərək məzarı üzərinə tər çiçək dəstələri düzüblər.***





Daha sonra tədbir Azərbaycanın Milli Qəhrəmanı Eltun İsgəndərovun adı verilmiş Əhmədbəyli kənd tam orta məktəbində qəhrəmanın əksi olan xatirə lövhəsinin açılışı ilə davam etdirilib.

Mərasimdə çıxış edənlər 2009-cu ilin iyun ayının 18-də Cəlilabad rayonunun Əsədli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazi-sində bir qrup şəxsin dövlət sərhədini Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində qanunsuz olaraq keçməyə cəhd göstərməsinin qarşısının alınması zamanı şəxsi şücaət və igidlik göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidentinin 25 iyun 2009-cu il tarixli 349 saylı sərəncamı ilə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmuş, vətənimizin təhlükəsizliyinin təmin olunması kimi şərəfli bir vəzifəni yerinə yetirərkən şəhidlik zirvəsinə ucalmış Eltun İsgəndərovun keçdiyi xidmət yolundan, dövlət sərhədinin mühafizəsi zamanı göstərdiyi hünərdən söz açıb və onun bu şücaətinin gənc nəslə örnək olduğunu xüsusi olaraq vurğulayıblar.

Milli Qəhrəmanın atası Xaləddin İsgəndərov oğlu ilə fəxr etməsini, Azərbaycanımızda Eltun kimi oğullarımızın sayının on minlərlə olduğunu qeyd edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə şəhid ailələrinə, döyüşlərdə sağlamlığını itirən şəxslərə və müharibə veteranlarına göstərdiyi diqqət və qayğıya görə öz ailəsi adından minnətdarlığını bildirmişdir.

Tədbirin sonunda məktəblilər tərəfindən respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr edilmiş bədii kompozisiya nümayiş etdirilmişdirlər.

# Azərbaycan-Rusiya dövlət sərhədinin yüksək dağlıq əraziləri nişanlarla işarələnəcək



18-20 iyun 2019-cu il tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası üzrə Birgə Komissiyanın növbəti, yeddinci iclası keçirilib. Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, iclasda 3 sentyabr 2010-cu il tarixində imzalanmış Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında Müqaviləyə uyğun olaraq, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası prosesinin davam etdirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

Görüş əsnasında tərəflər dövlət sərhəd xəttinin yüksək dağlıq ərazilərdəki hissəsində sərhəd nişanları ilə işarələnməsi üzrə iş planı qəbul ediblər. İclasın nəticələrini əks etdirən protokola uyğun olaraq, Birgə Komissiyanın işçi qrupu tərəfindən cari ilin iyul-oktyabr aylarında yüksək dağlıq ərazilərdə sərhəd nişanlarının yerləri müəyyən ediləcək və həmin nişanlar quraşdırılacaq, eləcə də dövlət sərhəd xəttinin meşə hissəsində, körpü və sərhəd-buraxılış məntəqələrində müvafiq demarkasiya işləri aparılacaq.

Görüş mehriban qonşuluq və konstruktiv dialoq ruhunda keçirilib. Birgə Komissiyanın növbəti iclasının Rusiya Federasiyası ərazisində keçirilməsi nəzərdə tutulur. İclasın keçirilmə tarixləri diplomatik kanallar vasitəsilə razılaşdırılacaq.

# Elsevər Ağayev: Son 15 ildə Azərbaycanda ana və uşaq ölümü azalıb



Azərbaycanda 2018-ci ildə ambulator tibbi xidmətə təxminən 49 milyon müraciət olunub. Bunu Səhiyyə nazirinin müavini Elsevər Ağayev deyib. /Trend/ E.Ağayev bildirib ki, bu müddət ərzində 727 min insan stasionar müalicəyə götürülüb ki, bunun da 280 mini müxtəlif səviyyəli əməliyyatlarla nəticələnib. Nazir müavininin sözlərinə görə, ötən 15 il ərzində Azərbaycan 670-dən artıq tibb müəsisəsi əsaslı sürətdə yenidən qurulub və tikilib. Bu 670 tibb mərkəzinin təqribən 470-i regionların payına düşür. E.Ağayev vurğulayıb ki, son 15 il ərzində Azərbaycanda ana ölümü 18.5-dən 12.7-ə, körpə ölümü 15.5-dən 11.1-ə endirilib: "Lakin biz bununla dayanmamalıyıq, biz çalışmalıyıq bu rəqəmləri 2-ə, 1-ə endirək və yaxud da çalışmalıyıq ki, ana ölümü ümumiyyətlə olmasın".

# Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ardıcıl və davamlıdır

***Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi siyasəti ardıcıl və davamlı xarakter daşıyır. Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin əvvəlində şəhid ailələrinin, məcburi köçkünlərin, Qarabağ əlillərinin və fiziki qüsurlu şəxslərin müavinətləri nəzərəçarpacaq dərəcədə artırılıb. Həmçinin, problemli kreditlərlə bağlı məsələ kökündən həll edilib. 18 iyun 2019-cu il tarixdə imzalanan sərəncamlarla ölkədə minimum əməkhaqqı, həmçinin, müxtəlif sahələrdə çalışanların əməkhaqları artırılıb. Sosial sahədə atılan yeni inqilabi addımla bağlı ictimai-siyasi xadimlərin fikirlərini öyrəndik:***

**Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri** Ramiz Göyüşov:



- Əhalinin sosial problemlərinin həllinə, onların sosial rifah halının yaxşılaşmasına yönəlmiş ikinci bir irihəcmli sosial paket Azərbaycan Respublikası Prezidenti tərəfindən atılan növbəti addımdır. Minimum əməkhaqlarının 250 manata qaldırılması, ayrı-ayrı strukturlarda çalışan işçilərin əməkhaqlarının artırılması, müəllimlərin əməkhaqlarının 20% artırılması, minimum pensiyaların 200 manata çatdırılması ilə əlaqədar Milli Məclisə göndərdiyi qanunvericilik təşəbbüsü və s. Bütün bunlar Cənab Prezidentin sözlə-əməlinin vəhdətinin parlaq təzahürüdür.

2018-ci il aprel ayının 11-də keçirilən prezident seçkiləri ərəfəsində Prezident İlham Əliyev "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır" deməklə, əslində, növbəti Prezidentlik dövründə fəaliyyətinin əsas istiqamətlərinin anonsunu vermişdir. 2018-ci il aprel ayının 18-də keçirilən andiçmə mərasimində Azərbaycan Respublikasının Prezidenti bəyan etdi: "Gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları və onun rifahı daim diqqət mərkəzində olacaqdır". Elə 2019-cu ilin ilk aylarında Prezidentimiz sözlə-əməlin vəhdətini nümayiş etdirdi. Aparılan islahatlar nəticəsində, əldə edilən nəticələr çox böyük sosial paketlərin icrasına imkan verdi. Minimum əməkhaqqı və minimum pensiyalar 40% civarında, sosial müavinətlər 2 dəfə, məcburi köçkünlərə verilən müavinətlər 50%, tələbələrin təqaüdü, Qarabağ əlillərinə, şəhid ailələrinə verilən müavinətlər artırıldı. Fiziki şəxslərin problemli kreditləri həll edildi. Çoxsaylı sosial məsələlərlə bağlı mühüm qərarlar qəbul olundu. Ölkə Prezidenti İlham Əliyev öz çıxışlarında, hər zaman qeyd edir ki, biz gələcəkdə də bu istiqamətdə addımlarımızı davam etdirəcəyik.

**Millət vəkili** Kamaləddin Qafarov:

- 2019-cu ilin sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından, başqa illərdən fərqlənən il olacağını bəyan edən Prezident İlham Əliyevin təqdim etdiyi yeni uğurlu sosial paket bu bəyanatın daha bir real təzahürüdür. Dövlət başçısının cari ilin 18 iyun tarixində imzaladığı sərəncamlar sosial sahədə yeni inqilabi addımlar olmaqla yanaşı, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətinə yönəlib. Məlum sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin, müxtəlif sahələrdə çalışanların əməkhaqlarının artırılması təmin olunub. "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq, 180 manatdan 250 manata çatdırılacaq. Bu, 2019-cu il ərzində dövlət başçısının tapşırığı ilə minimum əməkhaqqında edilən artıq ikinci ciddi artımdır.



Ölkəmizdə son 16 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Son 16 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur. Bildiyimiz kimi, 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır.

Dövlət başçısı İlham Əliyevin fevral ayında imzaladığı 8 Sərəncam və 4 Fərman sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin və başqa kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb və bunlar sosial sahədə inqilabi dəyişikliklərdir. Prezident İlham Əliyevin sosial islahatlar paketinin uğurlu nəticəsi 8 fevral 2019-cu il tarixli Sərəncamla ölkədə minimum əməkhaqqının 2019-cu il martın 1-dən artırılaraq, 180 manata çatdırılması oldu. Minimum əməkhaqqının yaşayış minimumuna çatdırılmasına imkan verən bu artım, eyni zamanda, qeyri-rəsmi əmək münasibətlərinin də leqallaşdırılmasına müsbət təsirini göstərir. 19 fevral 2019-cu il tarixli Fərman isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyinin təmin olunmasına xidmət etməklə, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsipləri dayandığının növbəti təsdiqi oldu. Dövlət başçısının imzaladığı 25 fevral 2019-cu il tarixli Sərəncam isə ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərdi. Sərəncamla 600 minədək şəxsə, o cümlədən, 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlərin, Prezidentin aylıq təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılması təmin edildi, əlavə olaraq, bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

Məlumdur ki, sosial paket elan edilərkən, Prezident İlham Əliyev bu paketin davam edəcəyini və artan iqtisadi resursların bir daha əhalinin maddi rifah halının yaxşılaşdırılmasına sərf ediləcəyini bəyan etmişdi. Bu günlərdə dövlət başçısının imzaladığı sərəncamlar ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq etdi və bu istiqamətdə cari il ərzində, artıq ikinci böyük sosial paket reallaşdı.

**Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının sədri** Sevil Əhmədova:

- Sosial sahədə atılan mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən çox yüksək qarşılanır. Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 2019-cu il iyunun 18-də imzaladığı Sərəncam respublikamızda əhalinin rifah halının yaxşılaşdırılması sahəsində 2019-cu ilin ilk aylarından atılan inqilabi addımların davamıdır. Sərəncamla minimum əməkhaqqının məbləği 250 manata çatdırılıb və belə bir qərarın verilməsi dövlətimizin siyasətində vətəndaş amilinin öndə dayandığı faktını bir daha təsdiqləyir. İnsana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. Prezidentin qeyd etdiyi kimi, bizim üçün Azərbaycan vətəndaşlarının rifahı, onların dolanışığı başlıca vəzifədir. Dövlət başçısının imzaladığı fərman və sərəncamların mühüm bir hissəsi, məhz əhalinin sosial müdafiəsinin əhəmiyyətli surətdə gücləndirilməsi, sosial sahə üzrə müasir, şəffaf, çevik, optimal idarəçilik və xidmət mexanizmlərinin formalaşması məramına istiqamətlənib. Bu mühüm məqam Prezident İlham Əliyevin siyasi fəaliyyətində, məhz insan, vətəndaş amilinin, ölkədə sosial rifah və sabitliyin təminatının əsas yer tutduğunu bir daha təsdiq edir.



Ölkəmizdə 11 aprel 2018-ci il tarixdə keçirilən prezident seçkilərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin növbəti dəfə xalqın böyük əksəriyyətinin səsini qazanaraq, parlaq qələbə qazanması və seçkilərdən keçən müddət ərzindəki fəaliyyəti hər bir azərbaycanlının Prezidenti olduğunu bir daha sübut etdi. Təsadüfi deyil ki, ötən il seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı oldu. Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter daşıdığını göstərən qərarları ilə bu ilin əvvəlində minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırıldı.

Bu gün ölkəmiz güclü iqtisadi imkanlara malik dövlətdir və Azərbaycanın iqtisadi qüdrəti, ixrac potensialı ilbəil artır və qeyri-neft sektoru inkişaf edir. Ölkəmizin təşəbbüsü ilə irimiqyaslı qlobal layihələr uğurla icra edilir. Görülən bütün bu işlərin nəticəsində isə, hər bir Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır. Bu cür sosial inqilab xarakterli qərarlar davamlı xarakter alıb və bütün bunlar insanların güzəranı, daha da yaxşılaşdırır. Azərbaycan sosialyönümlü dövlətdir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi və yaxşılaşdırılması istiqamətində dövlət başçısı tərəfindən islahatlar reallaşır.

***Zümrüd BAYRAMOVA***

## "Azərbaycan QDİƏT-ə sədrliyi layiqincə yerinə yetirib"



"Ən vacib məsələləri - iqtisadi, sosial əməkdaşlıq məsələlərini yerinə yetirmək üçün, eyni zamanda regionda infrastruktur layihələrinin gerçəkləşdirilməsi üçün təhlükəsizliyə töhfə vermək lazımdır". SİA-nın verdiyi məlumata görə, bunu Bolqarıstan Baş nazirinin müavini və Xarici İşlər naziri Yekaterina Zaxaryeva Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Məclisinin Baş Assambleyasının 53-cü iclasına ünvanladığı təbrik məktubunda bildirib.

Y.Zaxaryeva Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına sədrliyi layiqincə yerinə yetirdiyini vurğulayıb: "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş Assambleyasında parlamentlərarası əlaqələrimizlə regionda əməkdaşlığımızı artıra bildik. Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş Assambleyasının 53-cü iclası bu baxımdan mühüm və aktual məsələlərlə bağlı fikir mübadiləsinin aparılmasında böyük imkan yaradacaq". Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına sədrliyin Bolqarıstana keçəcəyini vurğulayan Y.Zaxaryeva qeyd edib ki, Bolqarıstan bu işləri görməyə, çağırışlara cavab verməyə hazırdır.

# Sosial-iqtisadi uğurlar əhalinin daha yaxşı yaşamasına imkan verir

***Məlum olduğu kimi, iyunun 18-də Azərbaycan Prezidenti İlham Əliyev aylıq minimum əmək haqlarının 180 manatdan 250 manata qaldırılması, eləcə də, büdcələrdən maliyyələşən nazirliklərdə, komitələrdə çalışan işçilərin vəzifə maaşlarının artırılması barədə Sərəncam imzalayıb. Söhbət etdiyimiz müsahiblərimiz, imzalanan Sərəncamı sosial sahədə atılan inqilabi Sərəncam adlandırdılar.***

## “Kaspi” qəzetinin baş redaktoru İlham Quliyev: “Yüz minlərlə insan bu artımlardan faydalanacaq”



- Keçən ildən başlayaraq, həyata keçirilən islahatlar büdcədə daxilolmaları artırıb. Hökumət ölkə başçısının siyasi iradəsinə uyğun olaraq, bu daxilolmaları birbaşa əhalinin sosial baxımdan zəif təbəqələrinin vəziyyətinin yaxşılaşdırılmasına yönəldib. 2019-cu ilin əvvəlindən Azərbaycanda sosial islahatlar paketinin reallaşdırılmasına başlanılıb. Xüsusən də, əhalinin sosial baxımdan həssas təbəqələrinin həyat şəraitinin yaxşılaşdırılması, gəlirlərinin artırılması üçün konkret və sistemli iş aparılır. Bilirik ki, ilin əvvəlindən minimum əməkhaqlarının, pensiyaların və digər müavinətlərin artırılması ilə bağlı sərəncamlar verildi və onların icrası təmin edildi. Bundan sonra da, Cənab Prezident keçirdiyi görüşlərdə, müxtəlif tədbirlərdə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasının hökumətin prioritetlərindən biri olduğunu qeyd etmişdi və bu istiqamətdə addımlar atılacağını vurğulamışdı. Verilən növbəti sərəncamlara bu kontekstdən yanaşmaq lazımdır. Bu, ilin əvvəlindən həyata keçirilən sosial paketin reallaşdırılması istiqamətində, növbəti inqilabi addım kimi qiymətləndirilə bilər. Bu inqilabi addımların atılması üçün iqtisadi əsasların yaradılması istiqamətində davamlı iş aparılır. Bir Azərbaycan vətəndaşı olaraq, buna hamı sevinməlidir.

Çünki yüz minlərlə insan bu artımlardan faydalanacaq. Bütün bunlar hər bir Azərbaycan ailəsində müsbət dəyişikliklərə gətirib çıxaracaq. Aparılan islahatlar, görülən işlər və qurulmuş davamlı dayanıqlı iqtisadi sistem gələcəkdə də hökumətə bu cür addımlar atmaq üçün imkan verəcək. Hesab edirəm ki, qarşıdakı illərdə biz minimum əməkhaqlarının, pensiyaların minimum məbləğinin, əhalinin həssas təbəqələrinin, əlillərin və sosial vəziyyəti zəif olan insanların gəlirlərinin artması istiqamətində addımları müşahidə edəcəyik.

## Politoloq Elxan Şahinoğlu: “Sərəncam sosial sahədə atılan inqilabi Sərəncamdır”



- Prezident İlham Əliyevin aylıq minimum əmək haqlarının 180 manatdan 250 manata qaldırılması, eləcə də, nazirliklərdə, komitələrdə çalışan işçilərin vəzifə maaşlarının artırılması barədə Sərəncamını müsbət qiymətləndirirəm. Faktiki olaraq, son 6 ay ərzində maaşlar iki dəfə artırıldı. Bu, Prezident İlham Əliyevin ölkə əhalisinin sosial vəziyyətlərinin daha da yaxşılaşdırılmasında maraqlı olduğunu və hər zaman vətəndaşların yanında olmasına növbəti sübutdur. Azərbaycan dünyada sabitlik adası kimi tanınır. Sosial-iqtisadi inkişafı əhalinin daha firavan yaşamasını şərtləndirən başlıca amillərdəndir. İqtisadi inkişafın nəticəsidir ki, Cənab Prezident əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına xidmət edən növbəti Sərəncam imzalayıb. Hesab edirəm ki, bu Sərəncam sosialyönümlü inqilabi Sərəncamdır.

## Politoloq Elşən Manafov: “Prezident dürüst və konkret addımlarını atır”



- Azərbaycan Prezidenti İlham Əliyevin aylıq əməkhaqlarının artırılması barədə imzaladığı Sərəncam Cənab Prezidentin həyata keçirdiyi islahatlar kursunu davam etdirməsi kontekstində qiymətləndirilməlidir.

Bildiyiniz kimi, büdcə təşkilatlarında maliyyələşən ayrı-ayrı işçilərin, o cümlədən də, digərlərinin maaşı 20-40 faiz civarında artırılmışdır. Eyni zamanda, sosial təqaüd alan əhalinin də təqaüdlərinin artırıla biləcəyi ilə bağlı fikirlər irəli sürülüb. Aylıq minimum əməkhaqlarının 180 manatdan 250 manata qaldırılması təkcə dövlət sektorunda deyil, özəl sektorda da işləyən vətəndaşlarımızın rifah halının yaxşılaşdırılmasına ciddi təsir göstərəcək. Bu, bir daha göstərir ki, Azərbaycan Prezidenti, bu illər ərzində, verdiyi vədlərini yerinə yetilməsi istiqamətində dürüst və konkret addımlarını atır. Azərbaycan dövləti bölgənin sosialyönümlü dövlətlərindən biridir. Bu Sərəncam, həm də əhalinin sosial müdafiəsinin gücləndirilməsi baxımından, atılmış növbəti dəyərli bir addımdır.

***GÜLYANƏ***

# “Əmək haqlarının artımı həm də iqtisadi aktivliyi artırıcaq”



“Prezident İlham Əliyevin 18 iyun tarixli sərəncamları ilə ilin əvvəlindən elan edilən sosial paketin yeni mərhələsi başladıldı. Yeni sərəncamlar 2 milyon vətəndaşı əhatə edir və orta hesabla maaşların 40-50 faizinin artırılmasını nəzərdə tutur”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Eldəniz Səlimov deyib. O bildirib ki, imzalanan növbəti sosial paket nəticəsində minimum əmək haqqlarının 180 manatdan 250 manata qaldırılması çox mühüm addımdır. Onun sözlərinə görə, minimum əmək haqqının yaşayış minimumundan çox olması yoxsulluq səviyyəsinin azaldılmasına da ciddi təsir edəcək.

Digər tərəfdən dövlət qulluqçularının, müəllimlərin, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların, hərbi və hüquq-mühafizə orqanlarında çalışanların və digələrinin əmək haqqlarının 20-40 faiz həcmində artırılmasının insanların maddi rifah halına mühüm dəstək olacağını deyən E. Səlimov vurğulayıb ki, bununla yanaşı, ölkədə inflyasiyanın səviyyəsinin çox aşağı olması (2.3%) artımın real dəyərinin yüksək olmasına imkan yaradacaq. Deputat qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən imzalanan sənədlər nəticəsində əmək haqqlarının artımı büdcədən əlavə olaraq 1 milyard manat vəsaitin ayrılmasına səbəb olacaq: “Dövlət büdcəsinin gəlirlərinin indiki artım sürəti və həcmi sosial paketin büdcə vasitəsilə tamamilə maliyyələşməsinə imkan yaradacaq. Əmək haqqlarının artımı həm də iqtisadi aktivliyi artırıcaqdır. Hesab edirəm ki, son sərəncamlar ilə ölkə prezidenti bir daha Azərbaycan vətəndaşının yanında, onun sosial-iqtisadi durumunun, güzəranın yaxşılaşmasında maraqlı olduğunu göstərdi. 18 iyun tarixində imzalanan sərəncamlar Azərbaycan əhalisinin, ölkə vətəndaşlarının önəmli bir təbəqəsinin və hissəsinin sosial-rifah halının yaxşılaşmasına mütləq şəkildə öz müsbət təsirini göstərəcək. Çünki, bu sənədlər tarixi və inqilabi sərəncamlardır. Onların hər biri birbaşa ölkə vətəndaşlarının, Azərbaycan əhalisinin rifahına, həyat şəraitinin, güzəranının yaxşılaşmasına yönəlmiş addımlardır. İnkişaf, tərəqqi edən, çiçəklənən Azərbaycanımıza da məhz bunlar yaraşır”.

E. Səlimov əlavə edib ki, inkişaf, tərəqqi, çiçəklənmə birtərəfli ola bilməz, bunlar ilk növbədə həmin ölkənin sütünları, dayaqları sayılan insanların həyatında, yaşayışında özündə göstərməlidir: “Azərbaycanda da məhz belədir, bunlar qoşa qanad kimi birlikdə addımlayır, həm ölkəmiz, iqtisadiyyatımız inkişaf edir, həm də insanlarımızın həyat şəraiti, güzəranı yaxşılaşır. Hesab edirəm ki, bunlar sonuncu olmayacaq, indiyə qədər olduğu kimi, bundan sonra da bu addımlar, bu artımlar davamlı xarakter daşıyacaq”.

***Nailə Məhərrəmova***

# Özbəkistan portalı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalə yayıb

Özbəkistanın kun.uz portalı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalə yayıb. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Xarici İşlər Nazirliyinə istinadla bildirilir ki, Ermənistan bir tərəfdən sülhdən danışır, digər tərəfdən isə Azərbaycan hərbçilərini qətlə yetirən erməni əsgərlərini mükafatlandırır. Azərbaycan danışıqlar yolu ilə tezliklə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində maraqlıdır. Danışıqların əsas məqsədi Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən çıxmasıdır. Ermənistan bu reallığı nə qədər tez anlasa, zəbt etdiyi Azərbaycan ərazilərindən nə qədər tez çıxsa, regionda bir o qədər tez sülh və inkişaf bərpa olar. Məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında da məlumat verilir, Azərbaycan torpaqlarının 20 faizinin işğal altında olduğu bildirilir.

# Pensiyalarla bağlı qanunvericiliyə dəyişiklik edilir



Azərbaycanda əmək pensiyalarının artırılması üçün qanunvericiliyə dəyişiklik edilir. SİA xəbər verir ki, bu gün Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında “Əmək pensiyaları haqqında” qanuna dəyişiklik layihəsi müzakirəyə çıxarılıb. Dəyişiklik əmək pensiyalarının minimum məbləğinin artırılması ilə bağlıdır.

Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə parlamentə göndərdiyi layihəyə əsasən, qanunun 6-1-ci maddəsinin (Əmək pensiyasının minimum məbləği) mətni yeni redaksiyada verilir: “Əmək pensiyasının minimum məbləği 2019-cu il 1 oktyabr tarixindən 200 manat məbləğində müəyyən olunur. Təyin edilən əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir”. Qeyd edək ki, qanun layihəsi Milli Məclisin iyunun 28-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.

# İqtisadçı: “Maaş artımı bahalaşmaya səbəb olmayacaq”

“Vergi və gömrük sahələrində həyata keçirilən islahatlar nəticəsində büdcəyə daxil olan vəsaitlərin artması əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılmasına imkan yaradır. Cari ilin əvvəlindən etibarən, sosial istiqamətdə bir sıra tədbirlərin həyata keçirilməsi, Azərbaycan prezidenti tərəfindən əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində mühüm sərəncamların imzalanması buna əyani sübutdur”. Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı Pərviz Heydərov deyib.

O bildirib ki, Azərbaycanda əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlar, dövlət başçısının özünün də müşavirələrdə və müxtəlif çıxışlarında da vurğuladığı kimi, “sosial zərf” qismində xarakterizə edilir: “Əslində, bu artımların əsası ötən ilin ikinci yarısında qoyulmuşdu və hökumət dövlət başçısının tapşırığı ilə hazırlıq işlərinə başlamışdı, müvafiq mexanizm qurulurdu. Yəni indi şahidi olduğumuz maaş artımları həm 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuşdu, həm də vergi-gömrük sahəsində aparılan islahatlarla əlaqədar dövriyyəyə əlavə vəsaitlərin daxil olması hesabına həyata keçiriləcək”.

İqtisadçı xatırladıb ki, dövlət büdcəsinə daxil olacaq vəsaitlərin ümumi həcminin 3 milyard manata çatdırılması proqnozlaşdırılır: “Vergilər Nazirliyinin rəsmən açıqladığı rəqəmə əsasən, dövlət büdcəsinə topdansatış ticarət şəbəkələrindən və özəl klinikalardan milyonlarla manat həcmində əlavə vəsait daxil olub. Prezident İlham Əliyev də sosial sahədə tədbirlərin həyata keçirilməsində həmin vəsaitin əlavə stimul yaratdığını qeyd edib. Bu isə o deməkdir ki, əgər “kölgə iqtisadiyyatı”na qarşı görülən tədbirlər effektli nəticə verməkdə davam edərsə, qeyri-leqal dövriyyə də uğurla aşkarlanarsa, maaş artımlarının bundan sonra da davamlı olacağını görəcəyik”.

P. Heydərov qeyd edib ki, maaş artımı inflyasiyanın yüksəlməsinə və qiymətlərin bahalaşmasına yol açması üçün zəmin deyil: “Hazırda ölkədə mövcud olan makroiqtisadi göstəricilər sabit vəziyyətdədir. Bunun bir səbəbi hökumətin 2017-ci ildən etibarən valyuta bazarında və makroiqtisadi göztəricilərdə tənəzzülün qarşısını alması, bəzi sahələrdə artımlara nail olmasıdır. Digər tərəfdən isə dünya bazarında neftin qiymətinin Azərbaycan üçün əlverişli səviyyədə olması da neqativ proseslərin təsirini neytrallaşdırmağa imkan verir. Bütün bunlar isə ölkədə inflyasiyanın artmasının və qiymətlərin bahalaşmasının qarşısını almaq üçün yetərlidir”.

***Nailə Məhərrəmova***

# Türkiyənin böyük mübarizəsi: Yaxın Şərqi risklər və təhlükələrdən xilas etmək xətti

***Ekspertlər Yaxın Şərqdə daha ciddi geosiyasi mübarizənin başladığı qənaətindədirlər. Xüsusilə Türkiyə ətrafında təhlükəli ssenarilər qurulur. Onu bir neçə istiqamətdən mühasirəyə alıb, sonra xaosa sürükləmək məqsədlərindən bəhs edilir. Hətta müxtəlif qondarma xəritələr belə tərtib edənlər vardır. Onların başlıca məqsədləri müsəlman ölkələrini kiçik hissələrə parçalamaqla bütövlükdə regiona ağalıq etməkdir. Ancaq, deyəsən, həmin dairələrin bir qismi bunun yanlış olduğunu anlamağa başlayıb. Müxtəlif səviyyələrdən eşidilir ki, "Yaxın Şərqə müdaxilə kökündən yanlış idi". Lakin o da maraqlıdır ki, hələlik geri çəkilən yoxdur. Mübarizə yeni üsullarla davam etdirilir. Daha çox siyasi-diplomatik fəaliyyət üzərində dayanılır. Onun fonunda geosiyasi xarakterli addımlar atılır. Böyük bir ərazidə terror dəhlizi yaratmaq planından da vaz keçilmir. Bütün bunların kontekstində Türkiyənin apardığı geosiyasi mübarizənin bir sıra aspektləri üzərində geniş dayanmağa ehtiyac vardır.***




## Təhlükəli ssenarilər: Ərdoğanın açıqlamaları işığında

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Yaxın Şərqdə böyük güclərin apardığı geosiyasi oyunların bir sıra məqamlarını açıqlayıb. Onun söylədiklərində bütövlükdə bölgədə vəziyyətin kifayət qədər mürəkkəb və risklərlə dolu olduğu tezisi öz ifadəsini tapıb. Başlıca təhlükələr olaraq Suriya ixtilafı, terrorçuluq, birtərəfli sanksiyalar, Qüdsün statusunun dəyişilməsinə olan cəhdlər göstərilib.

Bu problemlərin çərçivəsində ayrıca Türkiyə faktorunun müəyyən dairələri narahat etdiyini vurğulayan R.T.Ərdoğan, həmin istiqamətdə meydana çıxan məqamların qısa xülasəsini verib. Məlum olur ki, Yaxın Şərqdə geosiyasi oyunların mərkəzinə Türkiyə gətirilməyə çalışılır. Faktiki olaraq, onu bir neçə istiqamətdən mühasirəyə almağa çalışırlar. Bunu İraq, Suriya, Yunanıstan, Balkanlar istiqamətində həmin dairələrin atdıqları addımlar sübut edir. Bundan başqa, onlar açıq surətdə hansısa yeni "xəritə"dən bəhs edirlər. Həmin "xəritə"də müsəlman dövlətləri 3-5 yerə parçalanmış şəkildə göstərilir. Eyni zamanda, parçalanma dayanıqsız, asılı və məzhəb faktoruna görə bir-biri ilə düşmən olan kiçik ərazilərdən ibarət olmalıdır.

Maraqlıdır ki, bu cür vəziyyətin yaranmasında bəzi Yaxın Şərq ölkələrinin də iştirak etməyə çalışdığı haqqında informasiyalar yayılır. Bununla İslam ölkələrini bir-biri ilə qarşıdurmada olan düşərgələrə bölmək niyyəti aydın olur. Bunun kimlərə sərf etdiyi hamıya bəllidir.

Lakin məsələ hazırda elə ciddi səviyyədə özünü göstərir ki, konkret fəaliyyət olmasa, ilk baxışdan absurd təsiri bağışlayan qondarma xəritələr reallaşa bilər. Bu tezisdən çıxış edərək, Ankara bəyan edib ki, hansı planların hazırlandığından xəbərdardır və onu hazırlayanlara "meydan oxuyur". Bu mövqenin ciddiyyətini daha dərindən dərk etmək üçün son bir neçə ildə Türkiyə ilə bağlı atılan addımlara nəzər salaq.

Əvvəlcə Suriya məsələsində Türkiyəni kənarda saxlamağa çalışdılar. Ancaq Ankaranın Suriyanın daxilində malik olduğu dayaqlar hamının ağlını başına gətirdi. İkinci mərhələdə Türkiyə əsas tərəfdaşlardan biri kimi Suriya problemini həll etməyə dəvət edildi. Lakin paralel olaraq Türkiyəni çətinliyə salmaq planı da işə başladı. Bunun nəticəsi Türkiyənin "Fərat qalxanı" və "Zeytun budağı"" adlı iki uğurlu hərbi əməliyyat keçirməsi oldu. Bu hərbi əməliyyatlar kifayət qədər peşəkarlıqla həyata keçirildi və düşmən darmadağın edildi. Onların nəticəsində Türkiyə İraqdan Aralıq dənizinə qədər uzanmalı olan terror dəhlizini iki yerdən qırdı. Bir sıra dairələrin terror qruplaşmalarını İraqdan çıxarıb Aralıq dənizinə daşımaq planları fiaskoya uğradı.

Bundan sonra Qəndildəkiləri fəallaşdırmağa çalışdılar. Bu dəfə hədəfləri İran sərhədindən Aralıq dənizinə qədər uzanan terror dəhlizi yaratmaq oldu. Türkiyə buna cavab olaraq "Pəncə" hərəkatını başladı. İndi həmin hərbi əməliyyatlar böyük uğurla gedir və terrorçular qaçmaqla canlarını qurtarmağa çalışırlar. Bununla Türkiyə həm İraq, həm də İranın təhlükəsizliyi üçün önəm kəsb edən bir hərbi zərbə ilə növbəti planları alt-üst etmiş olur. Hazırda terror dəhlizinin Aralıq dənizi ilə bərabər İran sərhədi hissəsi də bağlanmış haldadır. Qəndildə terrora başçılıq edənlər sağ qalmaq üçün əllərindən gələni edirlər.

Bunların fonunda Ankaranın terrorçuların Qara dəniz qrupunu tamamilə məhv etməsi çox əhəmiyyətli hadisə oldu. Bu olay, faktiki olaraq, terrorun Türkiyəyə yayıla bilməsi potensialını sıfıra endirdi. Üstəlik, adları xüsusi siyahıda olan və başlarına mükafat qoyulan terrorçular bir-bir ələ keçirilir. Bu o deməkdir ki, Türkiyə xüsusi xidmət orqanları xaricdə hazırlanan planları alt-üst etməkdədirlər.

Ancaq indi də ortaya yeni oyun atılır. Onun iki qanadı mövcuddur. Birinci qanad Aralıq dənizində Kıbrıs (Kipr) yaxınlığında Türkiyə üçün problem yaratmaq, konkret olaraq, Türkiyəni oradan təcrid edib, mühasirəyə almaq cəhdidir. Bunun üçün hətta aralarında müsəlman dövlətlərinin də olduğu beynəlxalq koalisiya yaradılıb. Həmin koalisiya Türkiyədən tələb edir ki, Kıbrıs adaları yaxınlığında enerji axtarışları aparmasın. Özləri isə orada axtarış aparıb, enerji daşıyıcıları hasil etməyə çalışırlar.

Ankara buna cavab olaraq, bölgəyə iki neft və qaz kəşfiyyat-axtarış gəmisi göndərib və iş aparır. Əks tərəf ABŞ və Avropa İttifaqını da prosesə cəlb etməyə başlayıb. Amerika və Avropa İttifaqı, faktiki olaraq, Türkiyəyə bölgədən çəkilmək ultimatumunu veriblər. Ankaranın cavabı konkretdir: "Bu tələblərin onun üçün heç bir əhəmiyyəti yoxdur"! Yəni sözü olan meydana çıxsın. Buna isə risk edən hələ tapılmır.

## Mühasirə dağılır: Ankaranın cəsarətli addımları

Bununla Türkiyəni dənizdən təcrid etməyə göstərilən cəhdlər də hələlik boşa çıxır. Onların tam aradan qalxdığını demək olmaz. Ancaq aydın görünür ki, Türkiyə çox qətiyyətlidir və ona mane olmaq istəyənlərə sarsıdıcı zərbələr endirmək niyyətindədir. Bu cür vəziyyət proseslərin ikinci qanadı üzrə Suriyanın şimal hissəsində hazırda cərəyan edən hadisələr prizmasından da xeyli təhlükəli görünür. Konkret olaraq, İdlib bölgəsində hərbi təxribatlar törədildi. O cümlədən Türkiyə Silahlı Qüvvələrinin İdlibdə yerləşən hərbi birləşmələrinin müşahidə məntəqəsi raket atəşinə tutuldu. Ankaranın reaksiyası sərt oldu: əgər hücumlar davam etsə, ciddi qarşılıq veriləcək.

Paralel olaraq, İdlibdə yerləşmiş dinc əhalini bombalamağa başladılar. Bəşər Əsədə bağlı hərbi qruplar müxalifətin yerləşdiyi bir neçə məntəqəni kənar dəstəklə ələ keçirdi. Ancaq sonradan müxalif güclər şiddətli hücumla rejim qüvvələrinə ağır zərbələr vurub onları geri çəkilməyə məcbur etdilər.

Lakin təcrübə göstərir ki, iş bununla bitməyib. İndi Yaxın Şərqin iki müsəlman ölkəsi Suriyanın PYD/YPG-nin nəzarətində olan hissəsinə nümayəndələr göndərərək, əşirət rəhbərlərini Türkiyə ilə münasibət qurmamağa çağırırlar. Bununla onlar Yaxın Şərqin yad ssenarilər üzrə parçalanması planına xidmət etdiklərini göstərirlər. Lakin yerli ərəblər Türkiyəyə çox isti münasibətdədir və Ankaranı onları xilas etməyə səsləyirlər.

Beləliklə, hazırda Türkiyə üçün ən önəmli məsələ Qəndil-Sincar-Kərkük-Münbic-Tel Rifat-Kobani xəttində terror dəhlizini dağıdıb, sabitlik yaratmaqdan ibarətdir. Buna nail olunsa, onda İran sərhədindən tutmuş Aralıq dənizinə qədər geniş bir ərazidə terror zonası yaratmaq istəyənlərin bütün planları iflasa uğramış olar. Onlar üçün bu dəhlizin strateji əhəmiyyəti çox böyükdür. Çünki faktiki şəkildə uzaq Çin və Rusiyaya qədər geniş bir ərazidə terroru sürətli, səmərəli və təhlükəsiz yolla "bəsləmək" imkanı əldə edirlər. Türkiyə terror dəhlizini dağıtmaqla əslində Avrasiyanı terrordan xilas etmiş olur. Yəni məsələ ancaq Türkiyə, İraq və İranla məhdudlaşmır.

Əlbəttə, düşmən dairələr yalnız terror metodundan istifadə etmirlər. Onlar daxildə hakimiyyətin qeyri-legitimliyinə nail olmaq üçün ona qarşı çirkin kampaniyalar təşkil edir, təxribatlar törədir, seçkilərə müdaxilə etməyə çalışırlar. Türkiyə dövlət olaraq bu cəbhədə də böyük mübarizə aparır. Hələlik düşmənlərin bütün planları alt-üst olur. İstanbul bələdiyyəsinə seçkilərin sakit, demokratik və şəffaf keçməsi bu baxımdan olduqca vacibdir. Bu seçki türk demokratiyasının təntənəsinə çevriləcək!

Bütün bunlar açıq göstərir ki, Türkiyə tarixi və strateji bir mübarizə aparır. Türkiyənin qələbəsi haqqın, ədalətin, demokratiyanın, müstəqil dövlətçiliyin qələbəsi olacaq. Onun müsbət təsiri qonşu regionlara, o cümlədən Qafqaza da yayılacaq. Burada mövcud olan münaqişələrin ədalətli həlli üçün əlavə şanslar meydana gələcək. Və Rusiya ilə birgə həmin münaqişələri həll etmək üçün tarixi bir fürsət yaranacaq. Sirr deyil ki, erməni terroru hələ də bütün Cənubi Qafqaz üçün bir təhdid mənbəyi olaraq qalır. Onun aradan qaldırılması bütün regiona sülh, barış və əməkdaşlıq gətirəcək. Bundan faydalananlar sırasında erməni xalqı da ola bilər.

Türkiyənin apardığı böyük geosiyasi mübarizənin necə nəticələnəcəyini indidən demək çətindir. Çünki müasir geosiyasi dinamika olduqca mürəkkəb şərtlər daxilində formalaşır. Onun qeyri-müəyyənliyi, riskliliyi istisna deyil. Lakin bu, bir şərəf yoludur. Onu getmək zəruridir.

***Newtimes.az***

# Ermənistan gözləmədiyi yerdən ağır zərbə dadmalı olacaq!

*Yaxud beynəlxalq ictimaiyyət Ermənistanın təxribatlarına sərt reaksiya verməli və işğalçı siyasətinin sülh danışıqlarını sabotaj etməsinin qarşısını almalıdır*



***Məlum olduğu kimi, Dağlıq Qarabağdakı Ermənistan silahlı birləşmələrinin atəşkəs rejimini pozması nəticəsində, Azərbaycan Silahlı Qüvvələrinin hərbçisi Elşən Xəlilov şəhid olub. Son vaxtlar işğalçı rejimin bu kimi hadisələri tez-tez törətməsi isə, bir reallığı təsdiq edir ki, Ermənistan atəşkəs rejiminin qorunub- saxlanmasını, sülh danışıqlarının konstruktiv məcrada davam etdirilməsini istəmir. Xüsusilə, bir müddət əvvəl, ATƏT MQ həmsədrlərinin regiona səfərləri ərəfəsində mayor Aqil Ömərovun qətlə yetirilməsi, hazırda isə XİN rəhbərlərinin görüşü ərəfəsində də, daha bir təxribat törədilməsi bu cür qənaətə gəlməyə kifayət qədər zəmin yaratmış olur.***

### Ermənistanın müdafiə naziri David Tonoyan təsdiq edib ki, Azərbaycan hərbçisinin qətlə yetirilməsinə şəxsən göstəriş verib

Siyasi həyasızlıq və aşkar qeyri-humanistlik kimi qiymətləndirilməli olan bu hadisələrə sübut kimi daha bir amili göstərmək mümkündür. Belə ki, işğalçı Ermənistanın müdafiə naziri David Tonoyan təsdiq edib ki, Azərbaycan hərbçisinin qətlə yetirilməsi ilə bağlı şəxsən (!-R.R.) göstəriş verib və bu əməliyyatı icra edən erməni hərbçilərini yüksək mükafata təqdim edib. Bu reallıq, sübut edir ki, Ermənistanın siyasi hakimiyyəti yalnız işğalçılıqla deyil, həm də rəsmi cinayətkarlıqla məşğuldur. Əgər belə olmasa idi, bir dövlətin müdafiə naziri digər dövlətin hərbi qulluqçusunun öldürülməsi əmrini verməzdi. Halbuki cəbhə xəttində atəşkəs rejimi mövcuddur və baş verən hər iki hadisə rəsmi şəxslərin monitorinqləri, eləcə də, görüşləri ərəfəsində baş verib.

Əslində, Ermənistanın siyasi hakimiyyətində kimlərin olmasından asılı olmayaraq, bu dövlətin rəhbərliyi Azərbaycana qarşı açıq düşmənçilik mövqeyini ortaya qoyub, bu gün də həmin mənfur siyasət davam etdirilir. Yalnız hərbçilərimizin snayper atəşləri ilə şəhid edilməsi deyil, mülki əhalimizin, o cümlədən, qadınların, qocaların, uşaqların da qətlə yetirilmələri cinayətkar rejimin gerçək mahiyyətini ortaya qoymaqdadır.

### Nikol Paşinyanın hər vəchlə baş verənlərdən yayınması cəhdləri işğalçıların daxillərində formalaşmış mənfur hissləri daha qabarıq formada nümayiş etdirir

Maraqlısı isə budur ki, Ermənistanın hazırkı rəhbərliyi, baş nazir Nikol Paşinyanın hər vəchlə baş verənlərdən yayınması cəhdləri işğalçıların daxillərində formalaşmış mənfur hissləri daha qabarıq formada nümayiş etdirir. Misal üçün, Paşinyanın Sankt-Peterburqda forum zamanı işğalçı ölkənin rəhbərliyinin cəbhə xəttində təxribatlara hər hansı aidiyyətinin olması barədə sualı təkzib etməsi, sonra isə bu ölkənin müdafiə nazirinin belə açıqlaması göstərir ki, ya baş nazir ölkəni idarə edə bilmir, ya da bütün bunlar yalandır və sülh danışıqlarının imitasiyasıdır.

Lakin bu cəhdlərə baxmayaraq, istənilən halda, işğalçı və cinayətkar rejimlə idarə olunan Ermənistan öz yalanları ilə artıq nə həmsədrləri, nə də beynəlxalq ictimaiyyəti aldada bilmir.

### Beynəlxalq konvensiyalar və qətnamələr hansı reallığı əks etdirməkdədir?

Təəssüf ki, nə əvvəllər, nə də hazırkı məqamlarda beynəlxalq aləmdə bu hadisələrə müvafiq reaksiyalar verilmir, sərt bəyanatlar səsləndirilmir və Ermənistanın addımlarına qarşı etiraz səsləri ucaldılmır. Əgər belə davam edərsə, haqqın və ədalətin yanında olan Azərbaycan dövləti öz ərazi bütövlüyünü, suverenliyini, sülh danışıqları ilə deyil, müharibə yolu ilə azad etməklə təmin etməli olacaq. Çünki beynəlxalq konvensiyalar, o cümlədən, qətnamələr də müvafiq reallığı əks etdirməkdədir. Bütün bunların qarşısının alınması üçün isə, beynəlxalq ictimaiyyət Ermənistanın təxribatlarına sərt reaksiya verməli və bu ölkənin işğalçı siyasətinin, sülh danışıqlarını sabotaj etməsinin qarşısını almalıdır. Əks halda, daxilində siyasi-iqtisadi böhranlar, hakimiyyətdaxili çarpışmalar yaşayan Ermənistan gözləmədiyi yerdən çox ağır zərbə dadmalı olacaq!

***Rövşən RƏSULOV***

# Mübariz Əhmədoğlu: "Statik müdafiədən aktiv cilovlamaya" konsepsiyası aprel döyüşlərinin əsasını qoydu



"2015-ci ildən başlayaraq Ermənistanın o zamankı müdafiə nazirinin müavini, indiki müdafiə naziri David Tonoyan Ermənistanın vəziyyətinin getdikcə pisləşdiyini, o cümlədən demoqrafik və iqtisadi baxımından Ermənistanda uğur əldə etməyin çətinliyini başa düşdü və az imkanla daha böyük effekt yaratmaq niyyətində oldu. Bununla da əlaqədar "Statik müdafiədən aktiv cilovlamaya" konsepsiyasını ortalığa qoydu". Bunu SİA-ya verdiyi açıqlamada politoloq Mübariz Əhmədoğlu deyib.

Politoloq bildirib ki, bu konsepsiyanın mahiyyətinə görə sayca az, zəif Ermənistan ordusu güclü Azərbaycan ordusuna qarşı mübarizə aparmaq bacarığına malik olmalıdır: "Qoşunların təmas xəttində, dövlət sərhədində erməni əsgərinin hər bir ölümü Ermənistan cəmiyyətində ruh düşkünlüyü yaradır. Bunun qarşısını almaq üçün Ermənistan kiçik, amma mobil qüvvələrlə vaxtaşırı hücuma keçib Azərbaycan ordusunu itkiyə məruz qoymalıdır. Bununla da Ermənistan cəmiyyətində hərbi əhval-ruhiyyə yüksək olaraq qalacaqdır".

M.Əhmədoğlu qeyd edib ki, Tonoyan bu konsepsiyanı hazırladı, Vyanada ATƏT-in ofisində, sonradan Brüsseldə NATO-nun iqamətgahında rəsmilərin iştirakı ilə bu konsepsiyanın geniş müzakirəsi oldu: "Ən böyük müzakirə isə 2016-cı ilin fevralında Ermənistanda ziyalıların geniş iştirakı ilə təşkil olundu. Hamı, o cümlədən ATƏT və NATO da daxil olmaqla bütün ermənipərəst qüvvələr bu konsepsiyanı alqışladılar. Nəticədə 2016-cı ilin aprel ayı ərəfəsində Ermənistan ordusu bu konsepsiyaya uyğun əməliyyat keçirdi. Azərbaycan ordusu erməni ordusunun təxribatına layiqincə cavab verdi və nəticəsi də bəllidir. İndi də aprel döyüşləri ilə bağlı bəzi məsələləri Ermənistan tərəfi məxfi elan edib. Aprel döyüşlərindən sonra da NATO, ATƏT-də və Avropa İttifaqında olan havadarları aprel döyüşlərinin nəticələrinə xüsusi yer ayırdılar. Ermənistanın məğlubiyyətini kiçik, Azərbaycanın itkilərinin sayını artıq göstərmək məqsədilə xeyli qrant vəsaiti xərclədi.

"Statik müdafiədən aktiv cilovlamaya" konsepsiyasına bənzər tezislər yenidən D.Tonoyanın dilindən səslənir. ABŞ-da "yeni ərazilər uğrunda yeni müharibələr" tezisi də bu kateqoriyaya aiddir. Çox təəssüf ki, 2016-cı ildə "Statik müdafiədən aktiv cilovlamaya" konsepsiyasına Ermənistan rəhbərliyi etiraz etmədiyi kimi indi də N.Paşinyan "yeni ərazilər üçün yeni müharibə" konsepsiyasına dəstək verdi. Ermənistanın prezidenti S.Sərkisyanın sonu məhz 2016-cı ilin aprel döyüşlərindəki məğlubiyyətindən başladı. İndi hər hansı bir əməliyyat N.Paşinyanın sonunun bünövrəsini qoyacaqdır. Görünür, Ermənistanın Müdafiə naziri D.Tonoyanın indiki hərəkətlərində əsas məqsədi məhz budur".

# Ermənilər problemlərini etiraf edirlər



Vədlərin pozulması, pis, yanlış kadr siyasəti, insanların "ağlar və qaralar" olmaqla bölünməsi hakimiyyətin problemləridir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu "Çiçəklənən Ermənistan" partiyasının rəhbəri Edmon Marukyan bu gün parlamentdə deyib.

Məlumatda qeyd olunur ki, partiya rəhbəri Edmon Marukyan 2018-ci il üçün dövlət büdcəsinin icrası barədə hesabatın müzakirəsini ekstroardinal adlandırıb. "Bir tərəfdən bilirik ki, bu müxalifətin bir şey söyləməsi lazım olan bir əhəmiyyətli sənəddir, digər tərəfdən, biz baş nazirin özünün əleyhinə səs verdiyi hesabatı müzakirə edirik. Biz maraqlı bir problemlə üz-üzəyik. Noyabr ayına qədər biz bu büdcənin icrasını qətiyyətlə dəstəkləyirdik, buna görə biz hesabata qarşı çıxa bilmirik. Digər tərəfdən də bu büdcənin qəbul edilməsinin əleyhinə səs vermişik ", -deyə Edmond Marukyan bildirib. Bununla yanaşı müxalifət düşərgəsindən olan deputat qeyd edib ki, problemlər var və onun haqqında danışmamaq mümkün deyil.

Edmond Marukyan hökumətin kadr siyasətinin birinci dərəcəli bir problem olduğunu vurğulayaraq qeyd edib ki, əgər belə davam edərsə, bu hökuməti daha da çox tənqid edəcək. Marukyanın sözlərinə görə digər problem vədlərin pozulmasıdır. "Demişik, deyirik və deyəcəyik ki, vədlər verilib, amma yerinə yetirilməyib" -deyə, deputat irad tutub. Müxalifət düşərgəsindən olan millət vəkili qeyd edib ki, "ekstroardinar" şəraitə görə bu dəfə büdcənin icrasına səs verəcəklər.

# Ermənistan üçün "sonun başlanğıcı"



2018-ci ilin yazında Ermənistanda baş verən hadisələrin inqlabla heç bir əlaqəsi yoxdur və əksinə Ermənistanda baş verənlər inqlabın əksinə olub. SİA Ermənistana məxsus aysor.am saytının yayımladığı məlumata istinadən xəbər verir ki, bunu dünən analitik Ruben Hakobyan "Adekvad" ictimai təşkilatının təşəbbüsü ilə keçirilən "Adekvad-diskurs" konfransında bəyan edib. "Yəqin ki, bu daxili siyasi təzyiq və ya xaricdə planlaşdırılmış bir ssenari idi", - deyən Ruben Hakobyan öz fikirlərini bu şəkildə ifadə edib. Ruben Hakobyan Qarabağın təhlükəsizliyinin və mövcud problemlərin qarşısının alınmasının ən vacib məsələ olduğunu çatdırıb.

***İnam Hacıyev***

# "Paşinyan kəsib-atmaq kimi siyasi cəhdlərini kənara qoymalıdır"



"Vətəndaş sazişi" partiyasının qurultayı günündə birinci hissədən sonra Nikol Paşunyan partiyadaşlarını tərk edərək, biznesmen Samvel Karapetyanla görüşmək üçün "Malibu"ya getdi". SİA xəbər verir ki, bu barədə Ermənistanın "Hraparak" nəşri yazır.

Qeyd olunur ki, kifayət qədər uzun çəkən görüş zamanı erməni bizesmen baş nazirə bəzi məsləhətlər verb, hətta siyasətini dəyişməyi də təklif edib. "Karapetyan qeyd edib ki, əgər Paşinyan investisiya istəyirsə, o kəsib-atmaq, dağıtmaq və s. kimi siyasi cəhdlərini kənara qoymalıdır", deyə qəzet yazır.

***Rövşən***

# Jurnalist Əli Kərimlinin trollarının hücumuna məruz qalıb

*İsmayıl Cəlilov: "Nəyə görə Əli Kərimlinin tərəfdarları kanalımdan belə qorxurlar?"*

***ABŞ-da yaşayan jurnalist və bloger İsmayıl Cəlilov AXCP sədri Əli Kərimlinin trolları tərəfindən ona edilən hücumundan bəhs edib və videomüraciətlə çıxış edib. Jurnalistin sözlərinə görə, ona qarşı kampaniya "Youtube" kanalındakı müsahibələrdən birində AXCP sədri Ə.Kərimlinin ünvanına tənqidi fikirlərin səslənməsindən dərhal sonra sosial şəbəkələrdə başlayıb.***

Bundan dərhal sonra İ.Cəlilovun "Facebook" sosial şəbəkəsindəki səhifəsinə Ə.Kərimlinin trolları hücum edərək, ona qarşı təhqirlər yağdırmağa başlayıblar.

### "Əli Kərimlinin trolları hücum çəkdi və təhqiramiz şərhlər yazmağa başladılar"

Məsələ ondadır ki, İ.Cəlilov "Youtube" kanalında müxalifətçi Ruslan İzzətli ilə müsahibə hazırlayıb və orada AXCP sədri tənqid olunub. Məhz bundan sonra Kərimlinin trolları, onun verdiyi təlimatlara uyğun olaraq, ən ağır təhqir və söyüşləri jurnalistə ün-





vanlayıblar: "Mənim "Youtube" kanalımda "D18" hərəkatının lideri Ruslan İzzətli ilə müsahibə çıxıb və müsahibəsində, o, Ə.Kərimlini yüngül formada tənqid edib. Həmin videoda təhqir olmayıb. Jurnalist olaraq, mən heç vaxt imkan vermərəm ki, efirimdə kiminsə ünvanına təhqir səslənsin. Lakin bundan dərhal sonra mənim səhifəmə Ə.Kərimlinin trolları hücum çəkdi və təhqiramiz şərhlər yazmağa başladılar".

### "Əli Kərimli, mən sizə müraciət edirəm, tərəfdarlarınıza deyin ki, media nümayəndələrinə hücum etmək olmaz, onları yığışdırın!"

Onun sözlərinə görə, trolların heç bir tərbiyə və qanacaqları yoxdur, onlar küçə uşaqlarından qətiyyən fərqlənmirlər. Bloger jurnalist həmçinin bildirib ki, dəfələrlə dəvət edilməsinə baxmayaraq, Ə.Kərimli onun efirinə qatılmaqdan imtina edib: "Ə.Kərimli gəlmir, çünki mənim kanalımı çox kiçik hesab edir. 4 min nəfərlik auditoriyam onun üçün çox balacadır. Amma əgər məndə belə az tamaşaçı varsa, nəyə görə Ə.Kərimlinin tərəfdarları kanalımdan belə qorxurlar? Nəyə görə mən səhərdən-axşama qədər onların təhqir dolu şərhlərini pozmalıyam? Ə.Kərimli, mən sizə müraciət edirəm, tərəfdarlarınıza deyin ki, media nümayəndələrinə hücum etmək olmaz, onları yığışdırın! Məndə, belə bir qorxu yaranır ki, siz hakimiyyətə gəlsəniz, nə baş verər? Müxalifətdə olduğunuz halda, tərəfdarlarınız jurnalistlərə hücum edir. Əgər real hakimiyyət qazansanız..."

Göründüyü kimi, AXCP sədrinin ənənəvi "siyasəti" olan söyüş və təhqir kampaniyası bu gün də davam etdirilir. Lakin söz yox ki, belə kampaniyalar heç vaxt onların istədikləri nəticəni verməyib. Əksinə, sağlam düşüncəli insanlar belələrinə qarşı daha artıq nifrət hissi bəsləməyə başlayırlar.

**Rövşən RƏSULOV**

# İstifadə olunanlar "sülaləsi"

*Sevinc Osmanqızı da istifadə olunanlardandır*

***Bu gün kimlərinsə əlaltısı olmaq daha yaxşıdır, ancaq bütün varlığını satmaq isə mənəviyyatsızlıqdır. Bu, o kəslərdir ki, onun-bunun yalağı olmaqla yanaşı, adını "siyasi mühacir" qoyaraq, Vətənini, elini, hətta ailəsini belə sataraq, mənəviyyat deyilən məfhumdan uzaq olan, qranta hər şeylərini satanlar istifadə olunub, yararsız əşya kimi atılırlar. Sevinc Osmanqızı kimi. Bu, o S.Osmanqızıdır ki, Vətəni bir evə dəyişən satqın iblisdir.***

Bəli, bu o Sevinc Osmanqızıdır ki, doğma Vətənini, dostlarını, bir zamanlar ona dəstək olanları, hətta sığındığı Amerikanı Mayamidəki evə, mal varlığına ...dəyişə bilir. Bu, o Sevinc Osmanqızıdır ki, Xocalı faciəsində ermənilərə bəraət qazandırmaqla bir daha iç üzünü nümayiş etdirir. Nə üçün Xocalı soyqırımı ilə bağlı, erməni vəhşiliyini sübut edən faktları təfsilatı ilə paylaşıb, öz "amerikalı dostlarına", eləcə də, izləyicilərinə həqiqəti aşılamır? Bütün dünya bilir ki, bu qırğını ermənilər törədiblər, elə isə, bu olayda siyasi çalar axtarmağın mənası nədir? S.Osmanqızı aşırı qədər satqındır. O, hətta "20 Yanvar, 20 noyabr, Xocalı və xalqımızın başına gətirilən digər faciələrdə olanları bilmək haqqımız və borcumuz deyil" deyir. Doğrudan da, S.Osmanqızını, vəhşi, faşist adlandırsaq da... ondan da ağır bir söz axtarışına çıxdım. Tapdığım söz insan yox, İBLİS oldu. Bəli, S.Osmanqızı iblisdir. Maraqlıdır, bu iblis Xocalı faciəsi ilə bağlı "olanları bilmək borcumuz və haqqımız deyil" deyir. Ancaq hətta Sarkisyan belə, etiraf edir ki, Xocalıda insanları bilə-bilə qırıblar. Çünki bu adam və onun kimilər-Orduxanlar, Fəxrəddinlər, Vidadilər, Yunuslar, Xədicələr və sırası, mənşəyi bilinməyən ünsürlər erməni təəssübkeşidirlər, vəssalam. Son günlər Avropada oturub, gecə-gündüz Azərbaycan əleyhinə aksiyalar təşkil edən bu ünsürlər ölkəsinin və hökumətin əleyhinə fikirlərlə daha çox qrant almaq davası aparmaqdadırlar.

### "Belə tərbiyəsizin Osmanqızı adını daşımağa haqqı yoxdur"

"Belə tərbiyəsizin Osmanqızı adını daşımağa haqqı yoxdur" deyən Sevinc Mirzəyevanın bacısı Lalə Osmanqızı bildirib: "Onun kimlərinsə əlində siyasi oyuncaq olmasına üzülürəm. Bir atanın, bir ananın övladlarıyıq". ABŞ-da yaşadıqdan sonra Sevincin siyasi mövqeyinin kəskin surətdə dəyişməsi onda təəssüf yaradıb: "Mənim dəfələrlə və təkidlə ona sağlam siyasi mövqe nümayiş etdirmək üçün təsir etməyimə baxmayaraq, o öz fikrindən əl çəkmədi. Mən dəfələrlə elektron media vasitəsilə Sevincin doğma vətənim Azərbaycan, onun siyasi rəhbərliyi barədə yazdığı fikirlərə tənqidi münasibətimi bildirmişəm, ailəmizin tərbiyəsinə yaraşmayan mövqedən əl çəkməsini böyük bacı kimi də tələb etmişəm. Onun bu məsuliyyətsiz mövqeyini siyasi səbatsızlıq hesab edirəm və onun kimlərinsə əlində siyasi oyuncaq olmasına üzülürəm".



Üzülmək yox, belələri elədikləri əməllərinə görə, bu xalqın və bu dövlətin qarşısında cəzasını çəkmelidirlər. Amma bu, Azərbaycanda nə ilk, nə də son haldır. Çünki daha öncə, onlarla belə nümunə olub. Xüsusən də, siyasi səbəblər ucbatından, bu sayaq bəyanatları zaman-zaman eşitmişik. "Meydan" TV təmsilçilərinin timsalında bu, özünü daha çox göstərib. "Meydan" TV-nin rəhbəri Emin Millinin qohumları ondan imtina etdiklərini bildiriblər. Eyni media qurumunun əməkdaşı Günel Mövludun, Orduxan Teymurxanın... da valideynləri övladlarından imtina ediblər.

Bəli, Sevinc Osmanqızı kimilər beynəlxalq siyasi qüvvələr tərəfindən geniş maliyyə vəsaiti xərcləyərək, onlardan Azərbaycana qarşı istifadə edirlər. Bu parazitlər anlamalıdırlar ki, Azərbaycanda onlara yer yoxdur. Onların əsl mahiyyəti alət olmaqdır və onlar öz istifadə müddətlərini çoxdan bitiriblər. Beləleri istifadə olunan erməni itinin yalağında yalaqlanırlar bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

**Rəfiqə HÜSEYNOVA**



**Təhmasib Novruzov**

# Dövlətin güclənməsində vətəndaşın rolu nədən ibarət olmalıdır?

***Azərbaycan dövləti bu ilin əvvəlindən başlayaraq, dünyanın heç bir ölkəsində analoqu olmayan sosial paketlər qoydu ortaya. Bu günlərdə vətəndaşların sosial rifahının daha da yaxşılaşdırılmasına yönəldilmiş növbəti Sərəncamın Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanması isə, bir daha onu deməyə əsas verir k, iqtidarın bu yöndə siyasi xətti qətiyyətlidir, dönməzdir və cəmiyyətin bütün təbəqələrinin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmiş bu sərəncamlar, heç şübhəsiz, Azərbaycan insanının, hər bir ölkə sakininin rifahının yaxşılaşdırılmasına hesablanmış tarixi addımlardır. Özünü müxalifət adlandırıb, əslində, siyasi bizneslə məşğul olanların bir ildə dövlət büdcəsindən milyardlarla manatın cəmiyyətə ötürülməsi kimi riskli, həm də qətiyyətli addıma hansı don geyindirməyə çalışmasından asılı olmayaraq, ölkə başçısının bu addımı hər bir Azərbaycan ailəsində, hər bir vətəndaşın həyatında yaxşılığa doğru ciddi dəyişikliklərlə müşahidə olunmaqdadır. Bu, hər kəsə məlumdur və əlavə şərhə ehtiyacı olmayan faktdır. Məni bir vətəndaş olaraq maraqlandıran isə, məsələnin başqa tərəfidir.***

Bütün ölkələrdə narazı insanlar var. Bu narazı insanlar (siyasi məqsədli təşkilatların təmsilçiləri istisna olmaqla), əsasən, iki yerə bölünür. Birincisi, hakimiyyətdən vəzifə ala bilməyən və ya verilən vəzifənin öhdəsindən gələ bilməyib, kənarlaşdırılanlardır. İkincisi isə, el arasında tənbəl adlandırdığımız bacarıqsız, rahat həyat arzusu ilə yaşayan, lakin bu rahat həyatı qurmaq üçün heç bir fəaliyyət göstərməyənlərdir. Bu tip insanlar oturub ancaq dövlətdən umurlar, necə olur-olsun, dövlət onun bütün ehtiyaclarını qarşılamağa borclu olduğu fikri ilə yaşayırlar ki, bu da sovet rejimindən bizə qalan psixoloji məqamlarla bağlı miraslardandır. Birincilər haqqında danışmağa lüzum görmürəm. Çünki onlara, el arasında deyildiyi kimi, dövlət "beş barmağı bal edib" versə də, ağzından geri çəkən kimi deyəcək ki, mənə zəhər verdi. Əslində özünü müxalifət adlandıran qüvvələrin yan-yörəsinə yığışanların böyük, həm də çox böyük bir hissəsi, məhz həmin insanlardır ki, onlar heç vaxt, heç bir halda, cəmiyyətin xeyrinə atılan hər hansı addımı təqdir etməyəcəklər. Çünki maraqları cəmiyyətin inkişafında deyil, əksinə, problemlərin yaranmasında, narazıların sayının artmasındadır.

İkincilər isə, bir az oturub papaqlarını qarşılarına qoyub, düşünməlidirlər. Dünyanın bütün sivil ölkələrində, hər bir sivil vətəndaş ölkəsinə, dövlətinə daha çox xeyir verməyə çalışır, nəinki dövlətdən daha çox mənfəət götürməyə. Dünyanın saysız- hesabsız böyük mütəfəkkirləri ailəni kiçik dövlət adlandırıblar. Deməli, hər bir vətəndaş da, qarşılıqlı olaraq, dövləti böyük bir ailə hesab etməlidir. Ailədə övlad böyüyüb, həddi-büluğa çatandan sonra, ailə başçısı onu tədricən müstəqil həyata hazırlayır ki, bu həyatın da əsas prinsipi qazanmaq, ailə büdcəsinə kömək etməklə başlayır. Bu, hər bir ailənin keçdiyi yoldur və ailələrin hər birinin bu yolu keçməsi labüddür. Əks-təqdirdə, gəncdə arxayınçılıq yarana, meşşan həyata meyillilik arta bilər ki, bu da həmin gəncin şəxsiyyət kimi formalaşmasına imkan vermir və gələcək problemlər üçün münbit şərait yaradır.

Nəticədə, ələbaxımlıq, daim kimlərinsə hesabına yaşamaq kimi sindromlar baş qaldırır. Eyni durum dövlət və dövlətçilik anlayışında da əsas prinsiplərdəndir və lazımdır ki, hər bir vətəndaş (böyük mənada, ailənin hər bir üzvü) bu prinsipi yaşam prinsipi olaraq qəbul etsin. Yəni ölkədə yaranan şəraitdən faydalanaraq, özünün biznesini (bacarığa görə iri və ya kiçik biznes, fərq etməz) qurmağa, qazanmağa, qazancından dövlətin qüdrətlənməsinə dəstək verməyə, bunu bacarmayanlar ölkədə yaranan iş yerlərində xaricdən gəlib işləyənləri əvəz etməyə, fiziki və ya zehni əməklə məşğul olub həm özünün kiçik ailəsinin daha yaxşı dolanmasına,həm də böyük ailəsinin daha da güclənməsinə yardım etməlidir. Nəzərə alsaq ki, təhsil, mədəniyyət, səhiyyə, ekoloji problemlərin həlli, yol infrastrukturunun yenilənməsi, həm paytaxtın, həm də regionların yenidən qurulması və s. ilə yanaşı, müharibə şəraitində olduğu üçün hərbi qüdrətini daim inkişaf etdirmək, hərbi müdaxilə nəticəsində, ev-eşiyindən didərgin düşmüş bir milyondan artıq insanın problemlərinin həllinə çalışmaq, nəhayət, zorla sürükləndiyimiz müharibə nəticəsində, ölkədə on minlərlə şəhid ailəsinin, əlillərin, digər ehtiyaclı təbəqələrin də normal yaşayışını təmin etmək yükü dövlətin üzərindədir, o zaman hər birimizin dövlətin iqtisadi gücünün artmasında nə qədər məsuliyyət daşıdığımızı anlayarıq.

Məncə, mövzu ilə bağlı geniş diskussiya açmağa dəyər. Çünki dövlətin daha güclü olması, hər birimizin gələcəyinin qarantı olduğu kimi, onun güclənməsinə dəstək də hər birimizin vətəndaşlıq borcumuzdur.

# İnsan hüquqlarının müdafiəsi və PSİXİ SAĞLAMLIQ XİDMƏTLƏRİ

***İnsan hüquqlarına riayət edilməsinə rəy verən qurumun olmasına baxmayaraq (Ombudsman ofisi), həmin orqan psixi xəstə şəxslərin hüquqlarının qorunması ilə bağlı məsələləri müntəzəm surətdə nəzərdən keçirmir. Belə ki, psixiatriya xəstəxanaları və ümumi təyinatlı xəstəxanaların psixiatriya şöbələrinin heç birində, pasiyentlərin insan hüquqlarının qorunması ilə bağlı ildə azı bir dəfə yerinə yetirilməli olan kənar qurumların baxış keçirməsi və ya yoxlaması aparılmır.***

Psixiatriya xəstəxanaları və ümumi təyinatlı xəstəxanaların psixiatriya şöbələri işçiləri pasiyentlərin insan hüquqlarının qorunması mövzusunda, heç olmasa, bir günlük treninq, yığıncaq və ya digər növ məşğələlərdə iştirak etməyiblər. Bununla əlaqədar, son iki il ərzində, qeyri-hökumət və peşə təşkilatları tərəfindən təxminən 40 nəfər xəstəxana işçisinə pasiyentlərin insan hüquqlarının qorunması üzrə treninq keçilmişdir. İşgəncələrin, Qeyri-insani və ya Təhqiredici Müalicə və ya Cəzanın Qarşısının Alınması üzrə Avropa Komissiyasının ekspert rəyinə görə, müəyyən psixiatriya müəssisələrində insan hüquqlarının pozulması halları vardır. Psixi sağlamlıq xidmətlərinin təşkili ölkədə psixi sağlamlıq sahəsində səlahiyyətli qurum yoxdur. Səhiyyə Nazirliyinin baş psixiatrı vəzifəsi, əsasən, məsləhətverici funksiya daşıyır. Bu vəzifə üçün fəaliyyət dairəsi Soİ-dən qalan normativ sənədlə müəyyən edilir (Soİ Səhiyyə Nazirliyinin 1985-ci il tarixli 225 saylı əmri). Psixiatriya xidmətləri Səhiyyə Nazirliyi tərəfindən idarə olunur və ərazi/-xidmət sahələri prinsipi üzrə təşkil edilmişdir. 50 000-dən 150 000 nəfərə qədər əhaliyə xidmət göstərən hər bir şəhər və ya rayon poliklinikasında psixiatr ştatı vardır. Bu psixiatrlar, həm öz rayonlarının baş həkimləri (poliklinikaların baş həkimləri), həm də xidmət dairəsi 300 000 - 600 000 nəfər əhalini əhatə edən bölgələrarası Psixonevroloji dispanserlərin (PND) tabeliyində fəaliyyət göstərirlər (PND-lərə onlar hesabatlarını təqdim edirlər). Ambulator psixiatriya müəssisələri ölkədə 11 ambulator psixiatriya müəssisəsi (PND) mövcuddur, onlardan biri (9%) yalnız uşaq və yeniyetmələr üçün nəzərdə tutulmuşdur. 11 ambulator psixiatriya müəssisəsinin doqquzunda stasionar müalicəsi üçün çarpayılar vardır. Lakin ambulator müəssisələrində olan çarpayılar haqqında məlumatlar "Psixiatriya xəstəxanaları" bölməsində (səh. 15) verilmişdir. Bu müəssisələrdə ümumi əhalinin hər 100 000 nəfəri üçün 1092 pasiyent (1,1%) müalicə olunur. Ambulator psixiatriya müəssisələrində müalicə alan bütün şəxslərin təqribən 25%-ini qadınlar və təxminən, 16%-ini uşaq və yeniyetmələr təşkil edir. Mədəni xüsusiyyətlərlə əlaqədar olaraq, Azərbaycan Respublikasında qadınlar tibbi yardım üçün psixiatriya müəssisələrinə kişilər qədər tez-tez müraciət etmirlər və onlar daha çox öz ailələri və qohumları tərəfindən dəstək alırlar. Kişilərdən fərqli olaraq, gənc 14 yaşlı qadınlar sosial həyatda da - peşə fəaliyyəti və asudə vaxtın keçirilməsi ilə əlaqədar tədbirlərdə daha az iştirak edirlər. Qadınların kişilərə nisbətən, SN xidmətlərindən istifadə imkanlarının aşağı olmasının digər səbəbi, hərbi xidmətə çağırışla əlaqədar, orduya yararlılığın müəyyən edilməsi məqsədilə kişilərin psixiatrik müayinədən keçməsidir. Psixi xəstəlik damğası almaq qorxusu qadınlarda, kişilərdə olduğundan daha yüksəkdir və onların şikayətləri çox zaman ciddi qəbul olunmur. Psixi və davranış pozğunluqları ilə əlaqədar ambulator psixiatriya müəssisələrində müalicə alan şəxslərin ilkin diaqnozu nevrotik, stresslə bağlı olan, somatik formalı xəstəliklər (25%) və şizofreniya, şizofreniyaya bənzər və sayıqlama ilə müşayiət edilən xəstəliklər (19%) olur. Həyata keçirilmiş qiymətləndirmə əsasında, belə fikir söyləmək olar ki, Azərbaycan Respublikasında psixi xəstəliklərin statistik bölgüsü, Avropa ölkələrində olduğundan əhəmiyyətli dərəcədə fərqlənir, çünki psixiatrlar tərəfindən zəif və orta ağır əhval-ruhiyyə pozğunluqları diaqnozu əksər hallarda qoyulmur. Qiymətləndirmə aparılmış il ərzində, hər pasiyentin psixiatriya müəssisələri ilə kontaktlarının orta sayı 3,48-ə bərabər olmuşdur. Ambulator müəssisələr tərəfindən həyata keçirilən icma daxilində sonrakı qayğı və himayə, əsasən, bu müəssisələrin daxilində göstərilir. Qanunvericiliyə əsasən, pasiyentlərin evə yazılması üçün onlardan qabaqcadan razılıq alınması lazımdır. PND-lərdə fəaliyyət göstərən işçilərin nəqliyyatla təmin edilməməsi səbəbindən, pasiyentlərin evlərinə gedişlər məhduddur. PND-lərdə mobil psixiatriya qrupları yoxdur, çünki mobil psixiatriya qrupu Təcili Tibbi Yardım xidmətlərinin bir hissəsidir. Pasiyentlər PND-lərdə hər hansı psixososial yardım almırlar, çünki xidmətlər yalnız psixofarmakoterapiya ilə məhdudlaşır. Ambulator psixiatriya müəssisələrinin hamısı (100%), hər dərman qrupu üzrə (neyroleptik, antidepressant, əhval-ruhiyyəni tənzimləyən, trankvilizator və antiepileptik dərmanlar), heç olmasa, bir psixotrop preparatla təmin olunmuşdur və bu preparatları, bütün il ərzində, müəssisədə və ya yaxınlıqda yerləşən aptekdə əldə etmək mümkündür. Gündüz stasionarı müəssisələri ölkədə beş "gündüz müalicə şöbəsi" mövcuddur. Onlardan dördü paytaxtda yerləşmişdir: ikisi psixiatriya xəstəxanalarının bir hissəsidir, digər ikisi isə ambulator psixiatriya müəssisələrinin (yaşlılar və uşaqlar üçün PND-lər) tərkibinə daxildir. Mövcud gündüz stasionarı müəssisələrinin biri (20%) uşaqlar və yeniyetmələr üçün nəzərdə tutulmuşdur. Bu şöbələr tam gücü ilə istifadə edilmir və onlarda hər 100 000 nəfər ümumi əhali üçün 24,9 pasiyent müalicə olunur. Gündüz stasionarı müəssisələrinin qadın pasiyentləri haqqında məlumatlar toplanmamışdır. Gündüz stasionarı müəssisələrində müalicə olunan bütün pasiyentlərin 17%-ini uşaq və yeniyetmələr təşkil edir. Ümumi təyinatlı xəstəxanaların psixiatriya şöbələri İctimai Xəstəxanaların stasionar psixiatriya bölmələri ümumi profilli stasionarların "psixosomatik şöbələri" adlanır. Ölkədə cəmi 60 çarpayı tutumu olan (hər 100 000 nəfər əhali üçün 0,71) iki belə şöbə vardır. Ümumi təyinatlı xəstəxanaların psixiatriya şöbələrindəki bu çarpayıların heç biri uşaq və yeniyetmələr üçün nəzərdə tutulmamışdır. Uşaq və yeniyetmələr Ümumi Təyinatlı Xəstəxanaların psixiatriya şöbələrinə qəbul edilmirlər. Ümumi Təyinatlı Xəstəxanaların psixiatriya şöbələrinə qəbul edilmiş pasiyentlərin cinslər üzrə bölgüsü haqqında məlumat yoxdur. Ümumi Təyinatlı Xəstəxanaların psixiatriya şöbələrinə qəbul zamanı qoyulan diaqnozlar, əsasən göstərilən iki diaqnostik qrupa aid olur: şizofreniya, şizoid tipli və sayıqlama ilə müşayiət olunan xəstəliklər (38%) və əhval-ruhiyyə pozğunluqları (7%). Orta hesabla pasiyentlər çıxarışa qədər burada 30,8 gün qalırlar. PND-lərdə olduğu kimi, ümumi təyinatlı xəstəxanaların psixiatriya şöbələrində də, aparılan müalicə yalnız farmakoterapiya üzərində qurulmuşdur və psixososial müdaxilələr həyata keçirilmir. Ümumi Təyinatlı Xəstəxanaların psixiatriya şöbələrinin hamısı (100%), hər dərman qrupu üzrə (neyroleptik, antidepressant, əhval-ruhiyyəni tənzimləyən, trankvilizator və antiepileptik dərmanlar) müəssisədə əldə edilməsi mümkün olan, heç olmasa, bir psixotrop preparatla təmin edilmişdir. Ümumi Təyinatlı Xəstəxanalardakı psixiatriya şöbələrindən biri, həmin xəstəxananın əsaslı təmiri ilə əlaqədar olaraq, artıq bir ildən çoxdur ki, məhdud şəkildə fəaliyyət göstərir. Odur ki, bu şöbə üçün toplanmış məlumatlar 2006-cı ilin birinci rübünün statistik göstəricilərini əks etdirir. İcma əsaslı yaşayış müəssisələri ölkədə psixi pozğunluqları olan şəxslər üçün icma əsaslı yaşayış müəssisələri mövcud deyil. Psixiatriya xəstəxanaları ölkədə ümumi çarpayı sayı 4125 olan (hər 100 000 nəfər əhali üçün 48,9 çarpayı) doqquz Psixiatriya (ruhi) Xəstəxanası (PX) vardır. Bu çarpayı sayına, həmçinin, Ambulator Psixiatriya Müəssisələrində (PND) olan çarpayı miqdarı daxil edilmişdir. Ölkənin ən böyük xəstəxanasının strukturuna Ambulator Psixiatriya Müəssisəsi daxildir. Bundan başqa, yalnız həmin xəstəxanada 50 çarpayılıq uşaq şöbəsi və 50 çarpayılıq yeniyetmə şöbəsi vardır. Beləliklə, psixiatriya xəstəxanalarındakı çarpayıların yalnız 2%-i uşaq və yeniyetmələr üçün ayrılmışdır. Psixiatriya xəstəxanalarındakı çarpayı sayı, son beş il ərzində, 1% artmışdır (bu məlumat rəsmi statistik göstəricilərə əsaslanır və təmirlə əlaqədar olaraq, çarpayı fondunun bir hissəsinin, faktiki olaraq, fəaliyyət göstərmədiyini nəzərdə tutmur). Psixiatriya xəstəxanalarına pasiyentlər, ilk növbədə, şizofreniya, şizoid tipli və sayıqlama ilə müşayiət olunan xəstəliklərlə (36%) əlaqədar qəbul olunurlar. Bundan əlavə, psixiatrik müayinədən keçirilən insanlarda tez-tez şəxsiyyətin formalaşması və davranışla bağlı pozğunluqlar (8%) aşkar edilir. Psixiatriya xəstəxanaları pasientlərinin sayı hər 100000 nəfər əhali üçün 107,4-ə bərabərdir. Qiymətləndirilmənin aparıldığı il ərzində, psixiatriya xəstəxanalarında hər pasiyent üçün orta çarpayı-günlərin sayı 64,5 olmuşdur. Mövcud stasionar müəssisələrinin çatışmazlıqlarından biri də psixiatriya xəstəxanalarının qısa və uzunmüddətli müalicə müəssisələri şəklində bölgüsünün aparılmamasıdır. Pasiyentlərin stasionarda qalma müddətinə görə bölünməsi haqqında indiyədək informasiya yoxdur, çünki pasiyentlərin qeydiyyatının mövcud sisteminə əsasən, stasionarda qalma müddəti nəzərə alınmır. Xəstəliklərinin ağırlıq dərəcəsi və gedişindən asılı olmayaraq, psixiatriya xəstəxanalarında pasiyentlər oxşar şəraitdə saxlanılırlar. Psixiatriya xəstəxanalarında aparılan müalicə, yalnız farmakoterapiya üzərində qurulmuşdur. Ayrı-ayrı psixiatriya xəstəxanalarında məhdud psixososial reabilitasiya təşəbbüslərinin mövcud olmasına baxmayaraq, ümumilikdə, psixososial tədbirlər xəstəxanalarda aparılan müdaxilələrə daxil deyil. Psixiatriya xəstəxanalarının hamısı, hər dərman qrupu üzrə (neyroleptik, antidepressant, əhval-ruhiyyəni tənzimləyən, trankvilizator və antiepileptik dərmanlar) müəssisədə əldə edilməsi mümkün olan, heç olmasa, bir psixotrop preparatla təmin edilmişdir. Dərmanlarla təchizat qeyri-müntəzəm həyata keçirilir, preparatların çeşidi və miqdarı məhduddur.

Məhkəmə psixiatriyası və digər müəssisələrdə uzun zaman qalan pasiyentlərin saxlanma müddətinə görə bölgüsü haqqında informasiya əldə etmək mümkün olmamışdır. İnsan hüquqları və ədalət Ümumi Təyinatlı Xəstəxanaların psixiatriya şöbələrinə, həmçinin, psixiatriya xəstəxanalarına məcburi yerləşdirilmə barədə informasiya əldə etmək mümkün deyil, çünki məcburi yerləşdirmə haqqında qanunvericiliyin tətbiqini təmin edən prosedurlar yoxdur və bu cür yerləşdirmələri qeydə almaq üçün statistik formalar mövcud deyil. Bundan başqa, son bir il ərzində, ümumi təyinatlı xəstəxanaların psixiatriya şöbələrində və psixiatriya xəstəxanalarında, heç olmasa, bir dəfə məcburi saxlanmış və ya təcrid edilmiş pasiyentlər haqqında məlumatların qeydiyyatı aparılmamışdır. Lakin stasionar psixiatriya müəssisələrində belə hallara rast gəlinir. Belə ki, qeyri-qanuni yerləşdirmə və azadlıqdan məhrum etmə, stasionar müəssisələrdə vəzifədən sui-istifadə, müalicənin tamamlanmasından sonra qohumlar tərəfindən pasiyentlərin evə aparılmasından imtina edilməsi kimi məsələlər hələ də mövcuddur. Ən böyük şəhərdə və ya onun ətraf bölgələrində olan psixiatriya müalicəsi çarpayılarının sıxlığı, bütün ölkə üzrə olduğundan, 2,75 dəfə artıqdır. Çarpayıların bu cür paylanması kənd sakinləri üçün istifadə imkanlarını məhdudlaşdırır. Digər azlıqların (məsələn, linqvistik, etnik və dini azlıqlar) nümayəndələri üçün psixi sağlamlıq xidmətlərindən istifadə imkanlarında ədalətsizliyə yol verilməsi ilə bağlı ölkədə hər hansı problem mövcud deyil. Ölkədəki psixiatriya xəstəxanaları pis vəziyyətdədir və avadanlıqla çox zəif təchiz olunmuşdur, ona görə də, insanlar arasında bu 17 meylli müşahidə edilir, yalnız ağır və kəskin pozğunluq hallarında bu müəssisələrə müraciət etməyə məcbur olurlar.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*





# “Nar” Azərbaycanın rəqəmsal inkişafına öz töhfəsini verməyə davam edir

***Azərbaycanda hər zaman informasiya və kommunikasiya texnologiyaları sahəsinin inkişafını dəstəkləyən “Nar”ın tərəfdaşlığı ilə baş tutan NETTY-2019 - Azərbaycanın milli internet mükafatının qalibləri müəyyən edilib. Belə ki, il ərzində keyfiyyətli məzmununa, istifadəçiyə yararlılığına görə “Dövlət” nominasiyasında “intangible.az” saytı, “Təhsil və Elm” nominasiyasında “Bildilçin” tətbiqi, “Mədəniyyət və Yaradıcılıq” nominasiyasında “shekiculture.az”, ən yaxşı sosial səhifə nominasiyasında “Asan Viza” Facebook səhifəsi qalib olub. Digər nominasiyaların qalibləri ilə netty.az saytında tanış ola bilərsiniz.***

Nominasiyalar üzrə qaliblər Ekspert Şurasının və virtual münsiflər heyətinin seçiminə əsaslanaraq NETTY Akademiyası final səsverməsi zamanı müəyyən edilib. Bundan başqa, müsabiqədənkənar fəxri və həvəsləndirici nominasiyalar üzrə də müafatlar təqdim edilib.

“İnternet və ümumilikdə, İKT həlləri gündəlik həyatımızın ayrılmaz bir parçasına çevrilib. NETTY milli internet mükafatının əsas məqsədi ölkəmizdə bu sahə üzrə ən qabaqcıl və keyfiyyətli informasiya resurslarını və layihələrini müəyyən edərək onların inkişafına təkan verməkdir. Biz eyni zamanda informasiya mədəniyyətinin cəmiyyətdə artırılması, əhalidə informasiya texnologiyaların populyarlaşdırılmasını hədəfləyirik. Rəqəmsallaşma dövründə bu cür mühüm bir tədbirin keçirilməsində bizə dəstək olduğu üçün “Nar”-a təşəkür edirik”, - deyə “NETTY” milli interet mükafatının təşkilat komitəsinin sədri Ruslan Novruzov bildirib.

Qeyd edək ki, “Nar” KSM strategiyası çərçivəsində artıq ikinci ildir ki, “NETTY” milli interet mükafatının əsas dəstəkçisidir.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## ELAN

ADPU-nun Coğrafiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Mustafayeva Günel İlham qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# “PSJ” açıqladı: Neymarın transfer qiyməti 300 milyon avrodur!



Fransanın “Pari Sen-Jermen” futbol klubu braziliyalı hücumçu Neymarın transferi üçün 300 milyon avro almaq niyyətindədir. Belə ki, daha əvvəl yayılmış məlumata görə, Neymar 2013-2017-ci illərdə heyətində çıxış etdiyi İspaniyanın “Barselona” komandasına qayıda bilər. Lakin qeyd olunur ki, “PSJ” 27 yaşlı futbolçu üçün belə məbləğ müəyyən etməklə, onun başqa komandaya keçməsini mümkünsüz edir. Belə ki, heç bir klub indiki vaxtda bu qədər vəsaiti ödəməyə hazır deyil.

Neymar “PSJ”yə 2017-ci ilin yayında “Barselona” komandasından rekord məbləğ (222 milyon avro) müqabilində keçib. Fransa komandası ilə bu hücumçunun müqaviləsinin müddəti 2022-ci ilin yayında bitir. O, parislilərin heyətində bütün turnirlərdə keçirdiyi 58 görüşdə 51 qol və 29 nəticəli ötürmə ilə fərqlənib.

İyunun 6-da Braziliya və Qətər yığmaları arasında yoldaşlıq görüşündə (2:0) Neymar ayağından ciddi zədə aldığına görə bu günlərdə Braziliyada keçirilən Amerika Kubokunda iştirak edə bilməyib. Futbolçu milli komandada keçirdiyi 97 görüşdə qapıdan 60 top keçirib.

# Bakcell və INNOLAND birgə İnkubasiya Proqramının iştirakçılarını seçdi




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti və İNNOLAND Inkubasiya və Akselerasiya Mərkəzinin birgə inkubasiya proqramına birinci seçim başa çatıb.

Daxil olmuş 20-dən çox müraciət arasından seçilən 5 ideyanın müəllifləri öz startap layihələrini Seçim Komitəsi qarşısında təqdim edib. Ətraflı qiymətləndirmədən sonra, ən yüksək bal toplamış 3 startap komandası INNOLAND və Bakcell şirkətinin birgə inkubasiya proqramında iştirak etmək hüququ qazanıb. Seçimlərdən uğurla keçən “Face Ads”, “ToWaves” və “Bon.az” komandaları öz layihələri reallaşdırmaq şansı əldə ediblər. “Face Ads” sosial media sahəsində icraçı və sifarişçi arasında əməkdaşlığı formalaşdırmaq üçün yaradılmış platformadır. “ToWaves” ortaq maraq və oxşar fikirləri olan insanları bir araya gətirən şəbəkədir. “Bon.az” isə istifadəçilərin onlayn alış-verişdən “cashback” əldə etməsi üçün yaradılan sistemdir.

Layihədən asılı olaraq, növbəti 3-6 ay ərzində startap komandaları INNOLAND və Bakcell təqdim olunan pulsuz ofis sahəsi, peşəkar məsləhətlər, avadanlıq, təlimlər və digər imkanlardan istifadə edə biləcəklər. Bu dəstək sayəsində gənclər öz layihələri üzərində daha effektiv şəkildə işləyərək startap ideyalarını uğurlu və innovativ biznesə çevirmək imkanına malik olacaqlar.

Seçilmiş komandalar inkubasiya müddəti ərzində həm INNOLAND həm də “Bakcell”in AppLab mərkəzinin imkanlarından yararlanacaqlar.

Xatırladaq ki, Bakcell şirkəti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin INNOLAND Inkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Həmin müqavilə çərçivəsində Bakcell və INNOLAND yerli startaplar üçün birgə inkubasiya proqramı həyata keçirir. Bu əməkdaşlıq ölkənin bütün startap ekosisteminin inkişaf olunmasına böyük töhfə verməklə Azərbaycanda startap mədəniyyətinin formalaşdırılmasında strateji rol oynayır.

2014-cü ildən etibarən müxtəlif proqram təminatı və avadanlığın yaradılması ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün Bakcell şirkətinin AppLab proqramından dəstək alırlar.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**